

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET   № 110 (7365) / Cümə, 21 iyun 2019-cu il




*Prezident İlham Əliyev:*

## Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir

Bizim qarşımızda bir çox vəzifələr dayanır. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan öz müstəqil siyasətini aparmalıdır. Xalqımız ancaq müstəqillik şəraitində inkişaf edə bilər. Biz əsrlər boyu müstəqillikdən məhrum idik və öz seçimimizi edə bilmirdik. Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir. Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir... Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq.



### Birinci vitse-prezident Mehriban Əliyeva sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində olub

⇨ Bax: səh. 3

### "KazMunayGaz"ın "Sətti" qazma qurğusu Bakıya gətirildi




⇨ Bax: səh. 4

### *Əli Əhmədov:* Bizim hədəfimiz işğal olunmuş torpaqlarımızı azad etmək və qaçqın, köçkün düşən vətəndaşlarımızı öz yurd-yuvalarına qaytarmaqdır




⇨ Bax: səh. 3

⇧ Bax: səh. 5



### Davamlı islahatlar dövlət qulluğunun təkmilləşdirilməsində mühüm vasitədir

⇧ Bax: səh. 6




TÜRKİYƏNİN BÖYÜK MÜBARİZƏSİ:

### Yaxın Şərqi risklər və təhlükələrdən xilas etmək xətti

⇧ Bax: səh. 10

### BDU-da yay imtahan sessiyasına ictimai baxış




2 Əməkhaqqı və pensiyalarda artım 2,1 milyon vətəndaşı əhatə edəcək

14 Özgə atına "sahiblənmək" istəyənlərin bitməyən xofu...

16 Yay qripindən necə qorunmalı?

### Ramil Usubov Prezident yanında Təhlükəsizlik Şurasının katibi təyin edilib

Prezident İlham Əliyev R.İ.Usubovun Azərbaycan Respublikasının daxili işlər naziri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Ramil İdris oğlu Usubov Azərbaycan Respublikasının daxili işlər naziri vəzifəsindən azad edilsin.

Dövlət başçısının digər Sərəncamı ilə Ramil İdris oğlu Usubov Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi təyin edilib.

### Vilayət Eyvazov daxili işlər naziri təyin edilib

Prezident İlham Əliyev Vilayət Eyvazovun Azərbaycan Respublikasının daxili işlər nazirinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

Dövlət başçısının digər Sərəncamı ilə Vilayət Süleyman oğlu Eyvazov Azərbaycan Respublikasının daxili işlər naziri təyin edilib.

### Əli Nağıyev Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilib

Prezident İlham Əliyev Əli Nağıyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Əli Nağı oğlu Nağıyev Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilsin.

### Mədət Quliyev müdafiə sənayesi naziri təyin edilib

Prezident İlham Əliyev Mədət Quliyevin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi vəzifəsindən azad edilsin.

Dövlət başçısının digər Sərəncamı ilə Mədət Qəzənfər oğlu Quliyev Azərbaycan Respublikasının müdafiə sənayesi naziri təyin edilir.

### "Azərsilah" Açıq Səhmdar Cəmiyyəti ləğv edilir

Prezident İlham Əliyev "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 yanvar tarixli 466 nömrəli Fərmanının ləğv edilməsi barədə Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 yanvar tarixli 466 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 56) ləğv edilsin.

# *Prezident İlham Əliyev:* Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz

**Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, aksiomdur. Bunu biz yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf dayanır, sərmayə qoyuluşu dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür.**




AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 84-cü kitabında yer alan bu fikirlər Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısının söylədiyi nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin noyabrından 2018-ci ilin yanvarınadək olan dövrü əhatə edir.

Kitaba Prezident İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsinə dair İstanbulda keçirilmiş Zirvə toplantısında, Moskvada MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə çıxışlarının mətnləri, Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri, Davos Forumu çərçivəsində "Strateji baxış: Avrasiya" mövzusunda interaktiv iclasda iştirakı haqqında informasiyalar daxil edilib. Nəşrdə dövlətimizin başçısının Azərbaycana səfərə gəlmiş Əfqanıstan Prezidenti ilə görüşünə və sənədlərin imzalanmasına, Bolqarıstanın Baş Naziri ilə görüşünə dair materiallar yer alıb.

Çoxcildliyin 84-cü kitabında, həmçinin Prezident İlham Əliyevin Xorvatiya, Türkiyə, Pakistan, Hindistan, İran, Estoniya, Rusiya və digər dövlətlərin, Avropa İttifaqının, Beynəlxalq Telekommunikasiya İttifaqının, Dünya Bakının ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsi barədə materiallar toplanıb.

Yeni nəşrə dövlətimizin başçısının Bakıda "Asiyanın qəlbi - İstanbul prosesi" çərçivəsində "Gücləndirilmiş "Asiyanın qəlbi" regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar" mövzusunda yeddinci Nazirlər Konfransında nitqinin, 2017-ci ilin idman yekunlarına həsr olunmuş mərasimdə çıxışının, "2017 - İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransda nitqinin mətnləri, Azərbaycanın gənc alimlərinin I qurultayının, Azərbaycan memarlarının XIX qurultayının iştirakçılarına məktubları, XXIII Beynəlxalq "BakuTel-2017" Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisi ilə tanışlığını əks etdirən informasiyalar daxil edilib.

"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 84-cü kitabında, həmçinin dövlətimizin başçısının Ağcabədi, Sabirabad, Quba rayonlarına, Sumqayıt şəhərinə səfərlərinə, bölgələrdə iqtisadi, sosial, mədəniyyət obyektlərinin açılışlarında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallarla da tanış olmaq mümkündür.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 84-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Əməkhaqqı və pensiyalarda artım 2,1 milyon vətəndaşı əhatə edəcək



**2019-cu ilin sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacağını bəyan edən Prezident İlham Əliyevin təqdim etdiyi yeni uğurlu sosial paket bu bəyanatın daha bir real təsdiqi olmaqla sosial sahədə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində növbəti ciddi irəliləyişlərə imkan verib. Dövlət başçısının 18 iyun 2019-cu il tarixdə imzaladığı sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin müxtəlif sahələrdə çalışanların əməkhaqlarının artırılması təmin olunub.**

"Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncama əsasən, ölkədə minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq ki, bununla həm də minimum əməkhaqqının məbləği yaşayış minimumunu (180 manat) 40 faiz üstələmiş olacaq.

Bu, 2019-cu il ərzində dövlət başçısının tapşırığı ilə minimum əməkhaqqında edilən artıq ikinci ciddi artımdır. Belə ki, hələ bu ilin ilk aylarında Prezident İlham Əliyevin yeni sosial islahatlar proqramının tərkib hissəsi kimi 8 fevral 2019-cu il tarixli Sərəncamla minimum əməkhaqqı 130 manatdan 180 manata çatdırılmışdı. Göründüyü kimi, cari il ərzində minimum əməkhaqqının təqribən iki dəfəyə yaxın artırılmaqla 130 manatdan 250 manata çatdırılması-na nail olunur ki, bu da mühüm sosial uğur kimi əhalinin rifahına ciddi dəstək deməkdir. Digər tərəfdən, yeni artımla Azərbaycan minimum əməkhaqqının alıcılıq qabiliyyətinə görə (PPP) MDB ölkələri arasında 2-ci yerdə qərar tutacaq. 18 iyun 2019-cu il tarixdə imzalanan digər sərəncamlarla müxtəlif qurumlarda çalışanların əmək haqlarının cari il sentyabrın 1-dən orta hesabla 20-50 faiz artırılması tapşırılır. Onların sırasına müəllimlər, dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışanlar, hərbi qulluqçular, gömrük işçiləri və digərləri daxildir.

Ümumilikdə, sözügedən sərəncamlar ölkədə 1 milyon 350 minədək insanın əməkhaqqı gəlirlərinin artmasına səbəb olmaqla, onların rifahına ciddi dəstəkdir. Həmin insanlardan 1 milyonu dövlət, qalanları isə özəl sektorda işləyənlərdir.

Eyni zamanda, Prezident İlham Əliyevin yeni qanunvericilik təşəbbüsü kimi, əmək pensiyasının minimum məbləğinin 25 faiz artırılaraq cari il oktyabrın 1-dən 160 manatdan 200 manata çatdırılması təmin ediləcək. Bununla əlaqədar qanunvericilik layihəsi hazırlanaraq artıq Milli Məclisə təqdim olunub. Bu artım 660 min pensiyaçını əhatə edəcək.

Onu da qeyd edək ki, bu artım Prezident İlham Əliyevin təşəbbüsü ilə cari il ərzində əmək pensiyasının minimum məbləğinin artırılması istiqamətində atılan artıq ikinci mühüm addımdır. Bundan əvvəl də dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında pensiyanın minimum məbləği cari il martın 1-dən orta hesabla 40 faizədək artırılaraq 116 manatdan (bir sıra kateqoriyalar üzrə 80 manatdan) 160 manata çatdırılmış, həmin artım ümumilikdə 233 min pensiyaçını əhatə etmişdi. Göründüyü kimi, 2019-cu il ərzində Azərbaycanda minimum pensiyanın məbləği ümumən 72,4 faiz artırılmaqla, 116 manatdan 200 manata çatdırılıb.

Beləliklə, dövlət başçısının 18 iyun 2019-cu il tarixdə imzaladığı sərəncamlarla ölkədə minimum əməkhaqqının, həmçinin müxtəlif sahələrdə çalışanların əməkhaqlarının, eləcə də dövlət başçısının qanunvericilik təşəbbüsü nəticəsində minimum pensiyanın artırılması birbaşa olaraq, 2,1 milyondan çox vətəndaşın əməkhaqqı və pensiyasında ciddi artıma imkan verəcək.

Sosial sahədə yeni inqilabi addımlar olan bu artımlar üçün dövlət tərəfindən bu ilin qalan dövrü üzrə 660 milyon manat, illik 2 milyard manat əlavə vəsait ayrılacaq.

Qeyd edilənlər Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin daha bir mühüm nailiyyəti, dövlət başçısının əhalinin rifahına ardıcıl dəstəyinin əyani göstəricisi, ölkənin sosial inkişafında növbəti ciddi irəliləyişdir.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Birinci vitse-prezident Mehriban Əliyeva sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində olub





**İyunun 20-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Abşeron rayonunun Saray qəsəbəsində 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində olublar.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində uşaqlarla görüşüb, onların yaşayış şəraiti, uşaqlara göstərilən sosial və reabilitasiyayönümlü xidmətlərlə tanış olublar.

Mehriban Əliyeva və Leyla Əliyeva müəssisədəki uşaqların əl işlərindən ibarət sərgiyə baxıblar.

Sağlamlıq imkanları məhdud uşaqların funksional çatışmazlıqlarının aradan qaldırılması, onların bacarıqlarının inkişaf etdirilməsi üçün aparılan reabilitasiya işlərindən biri də onların yaradıcılıq potensiallarının inkişafıdır. Uşaqlar muncuqlarla, plastilinlə müxtəlif əl işləri hazırlayır, rəsmlər çəkir, konstruktor oyunları ilə məşğul olurlar. Müəssisənin sakinləri özlərinin hazırladıqları əl işlərini Mehriban Əliyevaya və Leyla Əliyevaya hədiyyə ediblər.

Qeyd edək ki, bu müəssisə 2010-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə yenidən qurulub. Hazırda burada 5-18 yaş arasında 170-dək uşaq yaşayır. Onlar əsasən uşaq serebral iflici, autizm, daun sindromu, fiziki və əqli inkişafdan geriqalma, mərkəzi sinir sisteminin zədələnməsi - ense-fo-lo-patiya, parez kimi xəstəliklərdən əziyyət çəkirlər.



Birinci vitse-prezident sosial xidmət müəssisəsinin sakinlərinin əhvalı ilə maraqlanıb, onların müalicəsinin müsbət nəticələr verdiyinin şahidi olub. Belə ki, müəssisənin sakinlərindən biri - Xəyalə Hüseynova Mehriban Əliyeva ilə söhbət zamanı Azərbaycan və ingilis dillərində "əlillik qüsur deyil və yaşamaq, yaratmaq üçün məhdudiyyət ola bilməz" dedi. Azərbaycanın Birinci vitse-prezidenti uşaqların arzularını dinləyib, yenidən onların yanına qonaq gələcəyini bildirib, onlara uğurlar arzulayıb. Mehriban Əliyeva uşaqlarla birlikdə kitab oxuyub, nəşrdəki şəkilləri müzakirə edib. Uşaqlar Mehriban Əliyevaya və Leyla Əliyevaya öz bacarıqlarını nümayiş etdiriblər. Onlar Prezident İlham Əliyevin Sərəncamı ilə bu ilin "Nəsimi İli" elan olunduğunu bildirərək, şairin şerlərini səsləndiriblər, mahnılar, rəqslər ifa ediblər.





Sağlamlıq imkanları məhdud uşaqlara dövlət qayğısı ildən-ilə artır. Dövlətimizin başçısının 2019-cu il 15 aprel tarixli Fərmanı ilə həmin uşaqlar üçün aylıq sosial müavinətin məbləği əhəmiyyətli şəkildə artırılmaqla, onlara qulluq edənlər üçün Prezidentin aylıq təqaüdü də təsis olunub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi nəticəsində Bakıda Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi istifadəyə verilib. Bu müəssisədə uşaqlar üçün müasir tələblər səviyyəsində, nümunəvi yaşayış və reabilitasiya şəraiti yaradılıb.

Saray qəsəbəsindəki 2 saylı sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisəsində 12 reabilitasiya otağı fəaliyyət göstərir və onlarda müasir dövrdə prioritet olan yeni reabilitasiya metodları - aktiv terapiya, oyun, ünsiyyət, musiqi, rəqs və digər terapiya növləri və hər bir uşaqla fərdi inkişaf planı əsasında işlər aparılır.

Sonda müəssisəyə Heydər Əliyev Fondunun hədiyyələri təqdim edilib.



# Nazirlər Kabinetinin növbəti iclası




**İyunun 20-də Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin növbəti iclası keçirilib.**

Baş Nazir Novruz Məmmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən ardıcıl və davamlı islahatlardan danışıb. Azərbaycanda reallaşdırılan yeni iqtisadi islahatlar nəticəsində ölkəmizin maliyyə imkanlarının əhəmiyyətli dərəcədə artdığını bildirən Novruz Məmmədov deyib: "Bu, imkan verir ki, digər məsələlərlə yanaşı, ölkə vətəndaşlarının rifah halının daha da yaxşılaşdırılması istiqamətində addımlar atılsın. Bu ilin ilk yarısında dövlətimizin başçısının imzaladığı sosialyönümlü fərmanlar və sərəncamlar 3 milyon vətəndaşımızı əhatə edib. Prezident İlham Əliyevin iyunun 18-də imzaladığı sərəncamlar bir daha göstərdi ki, Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində işlər uğurla davam etdirilir. Prezident İlham Əliyevin dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, həmçinin dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının, eləcə də minimum əməkhaqqının artırılması barədə imzaladığı sərəncamlar geniş əhali kateqoriyasının rifah halının daha da yüksəldilməsinə imkan yaradacaq".

Bu gün Azərbaycanın dünyanın qabaqcıl dövlətləri ilə ikitərəfli və çoxtərəfli əsasda əlaqələr qurduğunu, xalqımızın maraqlarının təmin olunduğunu, milli dövlətçilik ideyalarının qorunub inkişaf etdirildiyini bildirən Novruz Məmmədov bütün bu uğurların arxasında Prezident İlham Əliyevin yüksək peşəkarlığının və siyasi səriştəsinin dayandığını söyləyib.

Sonra Novruz Məmmədov iclasın gündəliyi barədə məlumat verib.

Sonra Energetika naziri Pərviz Şahbazovun, Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevin, "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynovun, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayevin, Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqovun gündəlikdəki məsələlərlə bağlı məruzələri dinlənilib.

İclasda mövzularla bağlı çıxışlar olub, müxtəlif təkliflər səsləndirilib.

## Prezident İlham Əliyev Bolqarıstanın "Dostluq" medalına layiq görülüb

Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın "Dostluq" medalına layiq görülüb.

Trend-in məlumatına görə, medal Bakıda keçirilən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş Assambleyasının 53-cü iclasında Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədova təqdim edilib.

Bildirilib ki, bu medal Prezident İlham Əliyevə Azərbaycan və Bolqarıstan arasında dostluq münasibətlərinin inkişafında xidmətlərinə görə təqdim olunub.

## *Ərdoğan:* Türkiyə Cənubi Qafqazdakı münaqişələrə biganə qala bilməz



Türkiyə Cənubi Qafqazdakı münaqişələrə biganə qala bilməz.

Trend-in məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

O bildirib ki, Türkiyə hər zaman münaqişələrin sülh yolu ilə həllinin tərəfdarı olub: "Bizim üçün regionda, o cümlədən Cənubi Qafqazda sabitlik vacibdir".

## Gürcüstan parlamentinin sədri Azərbaycana rəsmi səfərə gəlib



Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze iyunun 20-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Trend-in məlumatına görə, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Gürcüstan parlamentinin sədrini Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Ziyafət Əsgərov və digər rəsmi şəxslər qarşılayıblar.

*Əli Əhmədov:*

# Bizim hədəfimiz işğal olunmuş torpaqlarımızı azad etmək və qaçqın, köçkün düşən vətəndaşlarımızı öz yurd-yuvalarına qaytarmaqdır




İyunun 20-də Bakıda Ümumdünya Qaçqınlar Günü ilə bağlı tədbir keçirilib. Beynəlxalq Muğam Mərkəzində təşkil edilən tədbirin iştirakçıları əvvəlcə qaçqınların və məcburi köçkünlərin həyatından bəhs edən fotosərgiyə baxıblar.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Quido Ambroso tədbirin təşkilində göstərdiyi dəstəyə görə Azərbaycan Hökumətinə və Heydər Əliyev Fonduna minnətdarlığını bildirib.

Sonra BMT-nin qaçqınlar üzrə ali komissarı Filippo Qrandinin videomüraciəti nümayiş etdirilib.

Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov tədbirdə çıxış edərək bildirib ki, qaçqın və məcburi köçkün problemi bu gün dünyanı narahat edən məsələdir. Bu gün dünyada 70 milyondan çox qaçqın və məcburi köçkün var. Bu problemin həlli üçün dünya dövlətləri, siyasətçilər ciddi səy göstərməlidirlər. Ölkələr qaçqın və məcburi köçkünlərə yardımlar edirlər. Bu, yaxşı haldır. Ancaq münaqişənin həlli kökündən həll olunaraq qaçqınlığa, köçkünlüyə son qoyulmalıdır. Məhz müharibələrin səbəbidir ki, dünyada qaçqın ordusunun sayı artır.

Baş Nazirin müavini bildirib ki, Azərbaycan 30 ildən çoxdur bu problemlə üz-üzədir. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycanı çətin vəziyyətə salan bu məsələyə vaxtilə lazımı diqqətin yetirilməməsi səbəbindən indi bütün dünya bu ağır problemlə üzləşib. Bu gün bu problemi yaradan səbəblər araşdırılmalı, məsələnin həlli istiqamətində birgə səylər göstərilməlidir. Azərbaycan dövlətinin böyük səyləri nəticəsində bu gün ölkəmizdə qaçqınların və məcburi köçkünlərin sosial vəziyyəti xeyli yaxşılaşıb. Lakin hələ də onlar öz yurd-yuvalarına qayıtmayıblar. "Düşünürəm ki, Azərbaycanın haqq səsini vaxtilə eşitməyənlər bu gün bizim çağırışımızı dinləyəcəklər. Bizim hədəfimiz işğal olunmuş torpaqlarımızı azad etmək və qaçqın, köçkün düşən vətəndaşlarımızı öz yurd-yuvalarına qaytarmaqdır", - deyə Əli Əhmədov qeyd edib.







Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev deyib ki, bugünkü tədbirin keçirilməsində əsas məqsəd bu problemin nə qədər vacib olduğunu bir daha diqqətə çatdırmaqdır. Azərbaycanda qaçqın və məcburi köçkün problemi ilə bağlı əsaslı işlər görülür.

Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov bildirib ki, qaçqın, köçkün problemi həqiqətən də qlobal problemdir və ciddi yanaşma tələb edir. Azərbaycan qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məsələsində nümunədir.

Sonra Dövlət Miqrasiya Xidmətinin Ümumdünya Qaçqınlar Günü ilə bağlı hazırladığı videoçarx nümayiş olunub.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai qeyd edib ki, qaçqın və məcburi köçkün problemi dünya üçün ciddi təhlükədir.

"Alman Qaçqın Akademik Təşəbbüsü" təqaüd proqramı vasitəsilə Azərbaycanda təhsil alan əfqanıstanlı qaçqın tələbə Zəhra Muhamədi ölkəmizdə ona yaradılan şəraitdən danışıb.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Quido Ambroso tədbirə yekun vuraraq qeyd edib ki, qaçqın və məcburi köçkünlər diqqətdən kənarda qalmamalıdırlar. Dünyada davam edən münaqişələr qaçqın və məcburi köçkünlərin sayını artırır.

Tədbir bədii hissə ilə davam edib.

# "KazMunayGaz"ın "Sətti" qazma qurğusu Bakıya gətirildi

## QURĞU MODERNLƏŞDİRİLDİKDƏN SONRA SOCAR-IN CDC ŞİRKƏTİ TƏRƏFİNDƏN XƏZƏR DƏNİZİ AKVATORİYASINDA QAZMA ƏMƏLİYYATLARINA CƏLB OLUNACAQDIR













Qazaxıstan Respublikasının Ersay limanından yola düşmüş "KazMunayGaz"-ın "Sətti" özüqalxan üzən qazma qurğusu SOCAR-ın Caspian Drilling Company (CDC) MMC-nin müasir dəniz təchizat və logistika bazasına yan almışdır. Qurğunun qarşılanma mərasimində SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Qazaxıstanın "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyətinin sədri Alik Aydarbayevin rəhbərlik etdiyi nümayəndə heyətləri iştirak etmişlər. Qazma qurğularının tikintisi və təkmilləşdirilməsi üzrə böyük təcrübəyə malik CDC-nin müasir təchizat və logistika bazasında "Sətti" özüqalxan üzən qazma qurğusunun modernləşdirilməsi həyata keçiriləcəkdir. Modernləşdirmə işlərinin cari ilin sonunda yekunlaşması gözlənilir. Modernləşdirildikdən sonra qurğu ilə 6000 metrdən çox dərinliyə malik kəşfiyyat quyularının təhlükəsiz və səmərəli qazılması mümkün olacaq, o cümlədən qurğunun Xəzər dənizində qazma xidmətləri sahəsində rəqabət qabiliyyəti artacaq. Qurğunun ilk növbədə Abşeron yarımadasının SOCAR və BP tərəfindən birgə istismar olunan dayazsulu hissəsində, "Ümid"-"Babək" blokunda aparılan işlərə, eləcə də Xəzər dənizi akvatoriyasında digər əməliyyatlara cəlb edilməsi nəzərdə tutulur. Əməliyyat dövründə qurğu üzərində menecmenti SOCAR-ın CDC şirkəti həyata keçirəcəkdir.

Qurğunun qarşılanma mərasimindən sonra SOCAR və "KazMunayQaz" rəhbərliyi Heydər Əliyev adına Dərin Özüllər Zavoduna baş çəkmiş, SOCAR-ın "BOS Şelf" müəssisəsinin həyata keçirdiyi layihələrlə tanış olmuşlar.

Xatırladaq ki, cari ilin yanvar-fevral aylarında SOCAR ilə "KazMunayGaz" arasında imzalanmış memoranduma əsasən "Sətti" özüqalxan üzən qazma qurğusu SOCAR-ın CDC şirkətinə etibarlı idarəetməyə verilimişdir.

''KazMunayGaz'' Qazaxıstan dövlətinin neft və qaz sənayesində maraqlarını təmsil edən, karbohidrogenlərin kəşfiyyatı, istehsalı, emalı və nəqlini həyata keçirən operatordur. Şirkət 2002-ci ildə yaradılmışdır. Onun tərkibində 190-dan çox təşkilat birləşmişdir. ''KazMunayGaz''-ın səhmdarları ''Samruk-Kazyna'' Milli Sərvət Fondu (90%) və Qazaxıstan Respublikasının Milli Bankıdır (10% ).

CDC şirkəti 1996-cı ildə yaradılmışdır. Hazırda SOCAR-ın CDC-dəki payı 92.44%-dir. CDC Şirkətinə məxsus "Dədə Qorqud" (1996), "İstiqlal" (1998) və "Heydər Əliyev" (2017) adına yarımdalma qazma qurğuları hazırda Xəzər dənizinin Azərbaycana aid hissəsində müxtəlif beynəlxalq miqyaslı layihələrdə fəaliyyət











# Davamlı islahatlar dövlət qulluğunun təkmilləşdirilməsində mühüm vasitədir

**İyunun 23-ü dövlət qulluqçularının peşə bayramı günüdür. AZƏRTAC bu münasibətlə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri, Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü Süleyman İSMAYILOVUN məqaləsini təqdim edir.**

* * *

Azərbaycan dövlətinin sürətli inkişafı, dünyanın nüfuzlu iqtisadi qurumları tərəfindən tanınan nailiyyətləri, ilk növbədə, ölkə rəhbərliyinin həyata keçirdiyi ardıcıl və davamlı islahatların nəticəsidir və bu islahatların səmərəsini hər bir Azərbaycan vətəndaşı öz gündəlik həyatında hiss edir, əldə olunan uğurlardan bəhrələnir.

2018-ci ildə keçirilmiş prezident seçkilərindən sonra iqtisadi islahatların növbəti mərhələsinə qədəm qoyan Azərbaycan həyatın bütün sahələrində yeni uğurlara imza atıb və əhalinin güzəranını yaxşılaşdırmaq, ölkənin iqtisadi potensialını gücləndirmək, onun rəqabətqabiliyyətliliyini artırmaq üçün ciddi tədbirlər görüb. İlk növbədə, qeyri-neft sektorunun inkişafına diqqət yetirən dövlətimizin başçısı tərəfindən ölkənin idarəetmə strukturunun təkmilləşdirilməsi, idarəetmə aparatının çevik fəaliyyət göstərməsi üçün təsirli tədbirlər həyata keçirilib, bir çox dövlət orqanlarının strukturu dəyişdirilərək onların bazasında yeni idarəetmə qurumları yaradılıb.

Ölkənin daha da müasirləşdirilməsini, idarəetmə sisteminin təkmilləşdirilməsini əsas məqsəd və vəzifə kimi qarşıya qoyan Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin birinci rübünün yekunlarından bəhs edərkən son illərdə həm sosial, həm də infrastruktur sahələrində insanların rifahının yaxşılaşdırılması istiqamətində əldə olunan nailiyyətləri bilavasitə islahatların nəticəsi kimi dəyərləndirərək onların bundan sonra da qətiyyətlə davam etdiriləcəyini qeyd edib və sürətlə dəyişən dünyada yaranmış vəziyyətin Azərbaycanın qarşısında yeni çağırışlar, yeni məqsədlər qoyduğunu göstərək bir daha vurğulayıb ki, biz daim irəliyə baxmalıyıq, ölkəmizin inkişafını davamlı və uzunmüddətli etməliyik.

Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, aparılan iqtisadi islahatlar nəticəsində iqtisadiyyatımıza sərmayə qoyuluşu xeyli artıb, büdcə gəlirlərinin çoxalması bir çox sosial problemlərin həllinə imkan verib, ölkədə biznes mühiti xeyli yaxşılaşıb, son nəticədə ölkə bütün iqtisadi göstəricilər üzrə ciddi irəliləyiş əldə edib, Dünya Bankının "Doing Business" hesabatında 25-ci yerə layiq görülüb, il ərzində 32 pillə irəliləyərək ən islahatçı ölkələr sırasında yer alıb. İqtisadi nailiyyətlər Azərbaycan xalqının güzəranının daha da yaxşılaşdırılmasına, böyük infrastruktur layihələrinin reallaşdırılmasına, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla həyata keçirilməsinə imkan verib. Təkcə regionların inkişafı proqramları çərçivəsində 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikilib təhvil verilib, digər infrastruktur layihələri, qaz və su xətlərinin çəkilməsi, magistral və yerli əhəmiyyətli yolların salınması uğurla davam etdirilib.

Əlbəttə, bütün bu nailiyyətlərin qazanılmasında, ümumiyyətlə, dövlətin idarə olunmasında əsas qüvvə olan dövlət qulluqçularının rolu nəzərəçarpacaq dərəcədə yüksəkdir. Azərbaycanda iqtisadi yüksəlişin, sabitliyin, əmin-amanlığın təmin edilməsində, əhalinin işlə təmin olunması üçün yeni müəssisələrin açılmasında, ölkə üçün vacib sənaye sahələrinin formalaşdırılmasında, bütövlükdə yeni iş yerlərinin yaradılmasında və bütün resursların ölkə iqtisadiyyatının inkişafına səfərbər edilməsində dövlət orqanlarının və bu orqanlarda xidmət edən qulluqçuların fəaliyyəti böyük əhəmiyyət daşıyır.

Ölkə Prezidenti Azərbaycan xalqının həyat səviyyəsinin yüksəldilməsini, vətəndaşlarımızın problemlərinin həlli üçün bütün dövlət qulluqçularının səfərbər edilməsini, onların ölkədə aparılan quruculuq işlərinin önündə getməsini, mövcud çətinliklərin aradan qaldırılmasında daha fəal iştirak etməsini, vəzifəli şəxslərə qarşı tələbkarlığın gündən-günə artırılmasını daim diqqət mərkəzində saxlayır. Azərbaycan Prezidenti İlham Əliyev haqlı olaraq qeyd edir ki, vətəndaşlara hərtərəfli qayğı nümunəsi göstərən ölkələrdən biri Azərbaycandır və həm keyfiyyət, həm müddət, həm operativlik, həm də əhaliyə qayğı baxımından bu nümunə əvəzsizdir.



Prezident müvafiq icra orqanlarının rəhbərlərindən və məsul şəxslərindən qəti surətdə tələb edir ki, onlar vətəndaşların problemləri ilə müntəzəm məşğul olsunlar, vətəndaşların problemlərinə biganə qalmasınlar, onlara şərait yaratsınlar, dəstək olsunlar və kömək göstərsinlər.

Azərbaycan Respublikasının Prezidenti ölkədə mükəmməl idarəetmə mexanizminin yaradılması, ən müasir idarəetmə formalarının tətbiqi üçün ciddi səylərini davam etdirir. Prezidentin qeyd etdiyi kimi, "Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, ən ağır məqamlarda dövlət onların yanındadır. Dövlət orqanları, mərkəzi və yerli icra orqanlarının nümayəndələri daim vətəndaşlara qayğı, diqqət göstərməlidirlər, daim vətəndaşların yanında olmalıdırlar".

Prezident vurğulayır ki, bütün sahələrdə çox ciddi islahatlar aparılır və aparılacaq. O deyir: "Ümumiyyətlə, idarəetmə sahəsində islahatların aparılmasına böyük ehtiyac var... Hər bir sahədə inkişaf üçün böyük meydan var. Hər bir sahədə, əgər o sahəyə rəhbərlik edən insanlar öz işinə vicdanla yanaşarlarsa, mütləq nəticə olacaq. Bu, ictimaiyyət tərəfindən də mütləq yüksək qiymətləndiriləcəkdir. Ona görə bir daha demək istəyirəm ki, yerli və mərkəzi icra orqanlarının nümayəndələri daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar".

Bu baxımdan mübaliğəsiz və inamla demək olar ki, Azərbaycan Prezidenti İlham Əliyev öz gündəlik fəaliyyətində dövlət qulluğunun mükəmməl nümunəsini nümayiş etdirir və hər bir məmurdan, hər bir dövlət qulluqçusundan da bunu qətiyyətlə tələb edir.

Dövlət qulluğu sahəsində aparılan islahatlar cəmiyyətin inkişafında həmişə mühüm rol oynayıb və onun inkişafına, müasirləşməsinə müsbət təsirini göstərib. Dövlət idarəçiliyinin ən mühüm elementlərindən biri olan dövlət qulluğunu həyata keçirən insanlar, yəni dövlət qulluqçuları cəmiyyətdə gedən inkişaf proseslərinin həm təşkilatçısı, həm də icraçısıdırlar. Bu sahənin işi nə qədər yaxşı qurulsa, cəmiyyətin uğurları bir o qədər yüksək, nəticələri daha səmərəli olar. Buna görə də dövlətimizin başçısının səyləri ilə Azərbaycanda dövlət qulluğunun optimallaşdırılması, onun ən müasir tələblər səviyyəsinə qaldırılması üçün sistemli və məqsədyönlü iş aparılır.

Azərbaycanda dövlət qulluğunun əsas xüsusiyyətləri və prinsipləri, dövlət qulluğunun təşkilini şərtləndirən normalar 2000-ci ildə ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və qəbul edilmiş "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununda və bu Qanun əsasında hazırlanmış dövrün, həyatın, mövcud ictimai vəziyyətin tələbindən irəli gələn çoxsaylı normativ hüquqi aktlarda müəyyən edilib. "Dövlət qulluğu haqqında" Qanun qəbul edildikdən sonra mütəmadi olaraq təkmilləşdirilib, 180-dən artıq dəyişikliklə çox mükəmməl bir hüquqi akt yaradılıb. Ölkədə idarəçiliyin təşkilində mühüm rol oynayan bu aktlarla dövlət qulluqçularının etik davranış qaydaları, icbari sığortası, pensiya təminatı və digər məsələlər tənzimlənir. Dövlət quruculuğu məsələlərinə böyük əhəmiyyət verən dövlətimizin başçısı növbəti prezident seçkilərindən sonra 2000-dən çox fərman və sərəncam imzalayıb. İdarəetmə sahəsində aparılan islahatlar nəticəsində idarəetmə strukturunun təkmilləşdirilərək çevik mexanizmin yaradılması xüsusi diqqət yetirilən vacib məsələlərdən biridir. Son dövrdə bir çox dövlət qurumlarının statusu yenilənərək onlara publik hüquqi şəxs statusu verilib, bununla da onların həm hüquqları genişləndirilib, həm məsuliyyəti artırılıb və həm də müvafiq sahələrin idarə edilməsində daha fəal iştirakı təmin edilib.

Azərbaycan Respublikasının daha sürətli inkişafını təmin etmək üçün sosial və iqtisadi islahatların alternativinin olmadığını qeyd edən dövlətimizin başçısı yaşadığımız 2019-cu ildə də çox ciddi islahatların aparılacağını və dərinləşdiriləcəyini, bunun nəticəsində hər bir sahədə inkişafın, tərəqqinin davam edəcəyini, son nəticədə vətəndaşların daha yaxşı yaşayacağını qeyd edib və aparılan islahatların, şəffaflıqla bağlı görülən işlərin artıq öz bəhrəsini verdiyini göstərib. Xüsusilə vergi və gömrük orqanlarının fəaliyyətində aparılan islahatlar, bu sahədə şəffaflığın artırılması öz nəticələrini verməkdədir. Qısa müddətdə həmin orqanlar vasitəsilə büdcəyə daxilolmalar külli miqdarda artıb, bu, son nəticədə vətəndaşların güzəranının yaxşılaşmasına xidmət edib, bir çox sosial məsələlərin həllinə imkan yaranıb.

Bu bir həqiqətdir ki, ulu öndər Heydər Əliyevin dövlətçilik ənənələrini uğurla davam etdirən, ona daim müasirlik, yenilik gətirən Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən və müdrik siyasəti möhkəm elmi əsaslara söykənir, dərin araşdırmalar əsasında qurulur, bütün sahələrdə olduğu kimi, dövlət qulluğu sahəsində də islahatlar düşünülmüş surətdə və müəyyənləşdirilmiş proqramlara uyğun aparılır.

Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"ya uyğun olaraq 2019-cu ildə müəyyən edilmiş bir sıra tədbirləri, o cümlədən bu Strategiyanın icrası üzrə Fəaliyyət Planını qeyd etmək lazımdır. Bu plan əsasında müvafiq dövlət qurumları tərəfindən dövlət orqanlarının kateqoriya və iyerarxiyasının müəyyən edilməsi, bu orqanların struktur bölmələrinin növləri və yaradılması qaydası, dövlət qulluğu vəzifələrinin növləri, təsnifatları və vəzifə adları, rəhbər vəzifəli şəxslər üçün insan resurslarının idarə edilməsi üzrə təlim modullarının və proqramlarının hazırlanması, kadr qurumlarının işçilərin sayına mütənasib olaraq təşkili, bu qurumların nümunəvi əsasnaməsinin hazırlanması, dövlət qulluqçularının peşəkar inkişafı və təhsili, onların məlumat bazalarının və reyestrinin yaradılması, dövlət qulluqçularına bərabər tutulan publik hüquqi şəxslərin əməkdaşlarının, statusunun müəyyən edilməsi və digər məsələlər öz həllini tapır və tapacaqdır. Müvafiq sənəddə bu sahədə hər bir dövlət qurumunun vəzifələri konkret müəyyənləşdirilərək lazımi tapşırıqlar verilib.

Dövlət qulluğu sahəsində aparılan islahatlar dövlət qulluqçularının məsuliyyətini gündən-günə artırmaqla yanaşı, onların hüquqlarının və vəzifələrinin müəyyənləşdirilməsi, bu sahədə olan boşluqların aradan qaldırılması üçün də müntəzəm iş aparılır. Bu cəhətdən "Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanılan əmək müqaviləsinin nümunəsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 may tarixli Fərmanı üzərində bir qədər ətraflı dayanmaq istərdik. Bu sənəd dövlət qulluqçularının hüquqlarının qorunmasında və məsuliyyətinin artırılmasında mühüm rol oynayacaqdır. Bu nümunədə tərəflər haqqında məlumat, əmək müqaviləsinin müddətləri, dövlət qulluqçusunun əmək funksiyaları, qulluq şəraitinə, dövlət məvacibinə, əməyin mühafizəsinə, iş və istirahət vaxtına, məzuniyyətə, bədən tərbiyəsi və idmana dair şərtlər, birinin digərinə vurduğu ziyana görə tərəflərin qarşılıqlı maddi məsuliyyəti, sosial müdafiə məsələləri, mülkiyyət münasibətlərinin tənzimlənməsi, əmək müqaviləsində dəyişiklik edilməsi və ona xitam verilməsi barədə müddəalar vardır. Bu müqavilədə müəyyən edilən bütün hüquqlar dövlət qulluğuna dair normativ hüquqi aktların müvafiq maddələrinə istinad edilərək əsaslandırılır.

Bunlardan iş və istirahət vaxtına dair şərtlər diqqəti daha çox cəlb edir. "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsində göstərilmiş dövlət qulluqçularının iş vaxtı istisna olmaqla, qulluq üçün zəruri olduqda, dövlət orqanının rəhbərinin müstəsna halda iş vaxtının ayda əvəzi ödənilmədən 5 saata qədər artıra bilməsi, 5 saatdan çox artırdığı təqdirdə isə hər əlavə iş saatı üçün vəzifə maaşının ikiqat məbləğindən az olmamaqla əməkhaqqı verilməsi nəzərdə tutulub.

Azərbaycanda dövlət qulluqçularının daha səmərəli fəaliyyət göstərməsini və onlara tapşırılan mürəkkəb vəzifələrin daha yaxşı yerinə yetirilməsini təmin etmək üçün bu kateqoriyadan olan insanların sosial müdafiəsinin yaxşılaşdırılması da ölkə Prezidentinin daim diqqət göstərdiyi məsələlərdən biridir. Elə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il iyunun 18-də imzaladığı fərman və sərəncamlarla minimum əməkhaqqının 250 manata çatdırılması, demək olar ki, bütün mərkəzi və yerli dövlət orqanlarının və onlara bərabər tutulan orqanların, habelə güc strukturlarının, hərbi qulluqçuların, eləcə də digər büdcə təşkilatları işçilərinin əməkhaqlarının 40 faiz artırılması hamını, o cümlədən dövlət qulluğunda çalışan insanları son dərəcə sevindirib və təbiidir ki, daha yaxşı çalışmağa ruhlandırıb. Qeyd olunmalıdır ki, bu artımlar respublikada orta əməkhaqqının və pensiyaların miqdarına da müsbət təsir göstərib, bütövlükdə 2 milyona qədər vətəndaşı əhatə edib və bunun üçün büdcədən 1 milyard manata yaxın vəsait ayrılıb.

Ölkənin idarə olunmasında və inkişafının gücləndirilməsində ciddi rol oynayan dövlət qulluqçularının sayı da həmişə diqqəti cəlb edən məsələlərdən biridir. İlk baxışda onların sayı çox görünsə də, əslində, heç də belə deyildir. 2019-cu il yanvarın 1-nə olan məlumata görə, hazırda ölkədə dövlət qulluqçularının sayı 29 min 127 nəfərdir. Aparılan islahatlar nəticəsində dövlət qulluqçularının sayı 0,7 faiz azalıb. Ümumiyyətlə, dövlət qulluqçularının 28,5 faizini qadınlar təşkil edir.

Dövlət qulluqçularının yaş qrupları üzrə bölgüsü göstərir ki, bu sahədə çalışanların orta yaş həddi 43 ildir. 35-44 yaşda olan dövlət qulluqçuları 26,3 faiz təşkil edirsə, 63-64 yaşda olanlar cəmi 2,9 faizdir. Bu rəqəmlər gənclər üçün zəngin təcrübə məktəbindən bəhrələnmək imkanı olduğunu sübut edir.

Bütövlükdə Azərbaycanda dövlət qulluqçuları ölkənin məşğul əhalisinin çox cüzi bir hissəsini - 0,6 faizini təşkil edir. Bu rəqəm digər ölkələrlə müqayisədə xeyli azdır. Odur ki, bu sahədə çalışanların hazırlıq səviyyəsinin və iş keyfiyyətlərinin yüksək olması çox vacibdir. Yalnız yüksək peşəkarlıqla, dərin biliklə, kreativ düşüncə tərzi ilə, ən başlıcası Vətənə, xalqa, dövlətə sədaqət hissi ilə bu çətin və məsuliyyətli işin öhdəsindən gəlmək mümkündür.

Azərbaycanda dövlət qulluğunun təşkili prinsiplərindən danışarkən, sözsüz ki, ilk növbədə, onun məqsəd və vəzifələri üzərində dayanmaq lazımdır. Ümumiyyətlə, ölkə Prezidentinin siyasətinin sosialyönümlü olduğunu və dövlətlə vətəndaşlar arasında münasibətlərin sağlam zəmində qurulduğunu, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının, onun maraqlarının və rifahının dayandığını xüsusi qeyd etmək vacibdir. Hər bir Azərbaycan vətəndaşı dərindən dərk edir ki, dövlət nə qədər güclü olarsa, onun həyatı o qədər təhlükəsiz, risksiz və rahat olar, maddi rifahı ildən-ilə yaxşılaşar. Vətəndaşlarla dövlətin ünsiyyəti bilavasitə dövlət qulluqçuları vasitəsilə həyata keçirildiyinə görə bu qarşılıqlı münasibətlərin gündən-günə yaxşılaşması və dövlət qulluqçularının, ilk növbədə, vətəndaşın mənafeyini düşünməsi vacib məsələdir.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, "Azərbaycanda vətənpərvərlik hissləri, dövlətçiliyə bağlılıq çox yüksək səviyyədədir. Ona görə vətəndaş dövlət qarşısında öz vəzifə borcunu yerinə yetirir və yetirməlidir. Eyni zamanda, dövlət də həmişə vətəndaşın yanında olmalıdır". Dövlət və vətəndaş münasibətlərinin ahəngdarlığını dövlətimizin başçısının çətin məqamlarda həmişə xalqın içində olmasında, Azərbaycan vətəndaşlarına arxa-dayaq olmasında aydın görmək mümkündür.

Son vaxtlar dövlət qulluğunun təşkilində yeni nüanslar və formalar, tamamilə yeni nümunələr özünü göstərməkdədir. Bu baxımdan bir çox dövlət orqanlarının vacib funksiyalarını ən müasir texnoloji vasitələrlə həyata keçirən "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Azərbaycan Prezidentinin bilavasitə təşəbbüsü ilə yaradılan bu qurum artıq bütün dünyada maraq doğurur və müasir idarəetmə kadrlarının yetişməsində və bu sahədə yüksək şəffaflığın təmin edilməsində çox vacib amilə çevrilməkdədir.

Gənc kadrların idarəçilik məktəbinə çevrilən bu mərkəzlərdə gənclər çox zəngin təcrübə toplayır və özlərinə gələcək həyat vəsiqəsi qazanırlar. Hazırda respublikada fəaliyyət göstərən 15 "ASAN xidmət" mərkəzi ilə yanaşı, daha 5-i yaradılmaqdadır.

Hələ 2015-ci ildə bu xidmətin uğurlu fəaliyyəti BMT-nin Dövlət Xidmətləri mükafatına layiq görülüb və həmin dövrdən öz fəaliyyət diapazonunu daha da genişləndirərək əsl Azərbaycan brendinə çevrilib. BMT-nin bir neçə ölkədə keçirdiyi forumlarda barəsində geniş söhbət açılan bu xidmətin təcrübəsi çoxlarına örnək kimi təqdim edildiyinə görə BMT-nin Dövlət Xidmətləri Günü münasibətilə 2003-cü ildən etibarən hər il keçirilən Dövlət Xidmətləri Forumu bu il iyunun 24-dən 26-dək Bakıda təşkil olunacaq və bu Forumda BMT Baş katibinin müavini Lui Zemin, dünyanın 190-dan çox ölkəsindən 500-dən artıq nümayəndə iştirak edəcəkdir. Heydər Əliyev Mərkəzində baş tutacaq bu tədbir Azərbaycanın və onun dövlətçiliyinin uğurlarının nümayişinə çevriləcəkdir.

Görülən bütün tədbirlər Azərbaycanın daha yaxşı inkişafına, ölkədə daha mükəmməl idarəetmə sistemi yaradılmasına, eyni zamanda, xalq-iqtidar birliyinin, sabitliyin qorunmasına və bunun bütün xalqın məqsəd və məramına çevrilməsinə xidmət edir və edəcəkdir.

# BDU-da yay imtahan sessiyasına ictimai baxış





**Bakı Dövlət Universitetində (BDU) 2018/2019-cu tədris ilinin yaz semestrinin yay imtahan sessiyasında imtahanlara ictimai baxış keçirilib.**

BDU rektorluğu yanında İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri, təhsil ekspertləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, media və ictimaiyyət nümayəndələri ilə çay süfrəsi arxasında müzakirələr aparan rektor Elçin Babayev imtahanların təşkili və keçirilməsi istiqamətində islahatların aparıldığını, xoşagəlməz halların minimuma endirildiyini, imtahanların şəffaf və obyektiv keçirilməsi üçün lazımi şəraitin yaradıldığını bildirib. Universitetin inkişaf strategiyasından və yeniliklərdən söz açan rektor Elçin Babayev, eyni zamanda, UNESCO-nun Parisdəki Baş qərargahında Bakı Dövlət Universitetinin 100 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi ilə bağlı məlumat verib, bir əsrlik tarixi özündə əks etdirən fotosərginin və videofilmin tədbir iştirakçılarının böyük marağına səbəb olduğunu bildirib.

İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri, media nümayəndələri və digər iştirakçılar qısa müddət ərzində görülən işlərdən razılıq ifadə ediblər. Sonra imtahan prosesini auditoriyalarda və monitorinq otağından izləyib, sessiyasının gedişinə nəzarət edən, tələbə və valideynlərin, həmçinin ictimaiyyətin müraciətlərinin qəbulu və araşdırılması işini həyata keçirən Qərargahın və onun nəzdində təbiət və humanitar fakültələr üzrə apellyasiya komissiyalarının fəaliyyəti ilə tanış olublar. İctimai Nəzarət və Məsləhət Şurasının üzvləri, media nümayəndələri və imtahan prosesinə baxış keçirən digər iştirakçılar görülən işləri və universitetin yubileyinin beynəlxalq səviyyədə qeyd edilməsini yüksək qiymətləndirib, imtahanların şəffaf və obyektiv keçirilməsini, baş verə biləcək bütün neqativ halların qarşısının alınması üçün lazımi tədbirlərin görülməsini təqdir ediblər.

Qeyd edək ki, Bakı Dövlət Universiteti rektorluğu yanında İctimai Nəzarət və Məsləhət Şurasının tərkibinə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Milli Məclisin deputatı Novruz Aslan, millət vəkili Sevinc Fətəliyeva, Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, Qafqaz Müsəlmanları İdarəsi Elmi Dini Şuranın sədri, akademik Vasim Məmmədəliyev, BP şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Milli QHT Forumunun prezidenti Rauf Zeyni, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti, Korrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsinin koordinatoru Əliməmməd Nuriyev, "XXI əsr" Təhsil Mərkəzinin rəhbəri Etibar Əliyev, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı və Modern.az saytının baş redaktoru Elşad Eyvazlı daxildir.

Qeyd edək ki, imtahan prosesində, eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs Media Qrupu"un rəhbəri Bəhruz Quliyev, "Bakı xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "APA Group"un rəhbəri Vüsalə Mahirqızı, "Teleqraf Holdinq"in rəhbəri Aynur Camal, "Həftə içi" qəzetinin baş redaktoru Sevinc Seyidova, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu, Azadinform İnformasiya Agentliyinin baş redaktoru Niyaz Niftiyev, Moderator.az saytının baş redaktoru Zülfüqar Hüseynzadə, Report İnformasiya Agentliyinin baş redaktoru Murad Əliyev, Məktəbguşəsi.az saytının baş redaktoru Məzahir Məmmədli, müstəqil jurnalist Seymur Verdizadə, o cümlədən təhsil eksperti Kamran Əsədov və "XXI Əsrin Qadınları" İctimai Birliyinin sədri Mahirə Əmirhüseynova da iştirak ediblər.

**Zamin Məmmədov,**
***"İki sahil"***

# Lerikdə Nəsimiyə həsr olunmuş müsabiqəyə yekun vurulub

**Ötən gün Yeni Azərbaycan Partiyasının (YAP) tədbirlər planına uyğun olaraq YAP Lerik rayon təşkilatı, təhsil şöbəsi və Lerik Rayon Mədəniyyət Mərkəzinin birgə dəstəyi ilə İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bədii-qiraət müsabiqəsi keçirilib.**



Müsabiqənin ilkin mərhələsi Lerik rayon ümumtəhsil tam orta məktəblərinin 11-ci sinif şagirdləri arasında aparılıb və birinci mərhələdə seçilən şagirdlərin iştirakı ilə müsabiqənin final mərhələsi keçirilib. Münsiflər heyətinin qərarı ilə üç nəfər rayon məktəblisi - Ləman Xanışova, Kənan Seyfullazadə və Niyazi Vəlimənmmədov müvafiq olaraq birinci, ikinci və üçüncü yerləri tutaraq müsabiqənin Bakı şəhərində keçiriləcək final mərhələsinə vəsiqə qazanıblar.



Mükafatlandırma mərasimindən sonra çıxış edən YAP Lerik rayon təşkilatının Aparat rəhbəri Elxan Qəmbərov bildirib ki, Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar "Nəsimi İli" elan edilməsi şairə verilən dəyərin, hörmət və ehtiramın, mədəniyyətə, şeirə, sənətə, onların inkişafına böyük diqqətin nəticəsidir.

**Taleh Bağırov,**
***"İki sahil"***

# Kotavan və Ağzıbir kəndlərində seçicilərlə görüş

**Yeni Azərbaycan Partiyası (YAP) Ağdaş rayon təşkilatının sədri, Milli Məclisin deputatı Cavid Osmanov rayonun Kotavan və Ağzıbir kəndlərində sakinlərlə görüşüb.**





Görüşlərdə Cavid Osmanov son illər ərzində ölkədə görülən işlərdən söhbət açaraq Azərbaycanın tarixində heç vaxt müşahidə edilməyən bir inkişaf dövrü yaşadığını qeyd edib. Paytaxt Bakı ilə yanaşı, regionlarda da həyata keçirilən çoxsaylı infrastruktur layihələrinin, aparılan abadlıq-quruculuq işlərinin deyilənlərə bariz nümunə olduğunu qeyd edən Milli Məclisin deputatı, eyni zamanda, Ağdaş rayonunda da irimiqyaslı işlərin getdiyini görüş iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, bütün bunlar ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir.

Görüşlərdə çıxış edən sakinlərdən Mürşüd Şükürov, Əbdülqədir Mahmudov, Feruz Hüseynov, Qəndab Lətifova, Məhəmmədiyyə İsayev, Abdulla Əhmədov, Kifayət Məmmədova, Vaqif Səmədov, Alış Cəfərov, Ceyran Əhmədova və Eynulla Əhmədov bildiriblər ki, bu gün Azərbaycan sabitlik və təhlükəsizlik məkanıdır.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Cəlil Xəlilov: Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar hər bir vətəndaşı əhatə edir

Azərbaycanda bütün sahələrdə davamlı inkişaf bir-birini əvəzləyir. Dünyaya nümunə təşkil edən Azərbaycanın iqtisadi-sosial modeli vətəndaşların sosial rifahına və cəmiyyətin inkişafına istiqamətlənib. Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində genişmiqyaslı tədbirlər əsaslı təməllər üzərində dayanır. Dövlətin bu sahədə siyasi xətti gündən-günə nailiyyətlərin daha da artacağından xəbər verir.

Bu fikirləri Azərbaycan Respublikasının Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı sədrinin müavini, polkovnik Cəlil Xəlilov AZƏRTAC-a müsahibəsində söyləyib.



C.Xəlilov bildirib ki, 2019-cu il respublikamız üçün əlamətdar illərdən hesab etmək olar. Cari ilin birinci yarısının hələ başa çatmamasına baxmayaraq, həyata keçirilən islahatlar əvvəlki illərə nisbətdə daha çoxdur. İmzalanan sonuncu sərəncamlar əhalinin gəlirlərinin artmasına, yığım imkanlarının genişlənməsinə şərait yaradacaq. Əməkhaqlarının əhəmiyyətli artımı əhalinin alıcılıq qabiliyyətinə müsbət təsir etməklə, iqtisadi fəallığa töhfə verəcək. Bu ilin birinci yarısında Prezident İlham Əliyevin imzaladığı sərəncamlar hər bir vətəndaşın maddi rifah halının yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə və onlara dövlət qayğısının daha da artırılmasına xidmət edir. Sosial sahədə islahatların növbəti mərhələsində hazırlanan inqilabi addımlar Prezident İlham Əliyevin "Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır" tezisini bir daha təsdiq etdi.

"Sonuncu sərəncamlarda qeyd edilən şəxslərin aylıq vəzifə maaşlarının 2019-cu il sentyabrın 1-dən orta hesabla 40 faiz artırılması nəzərdə tutulur. Sərəncamlara əsasən, hərbi və hüquq-mühafizə orqanlarının xüsusi rütbəli əməkdaşlarının və mülki işçilərinin də əməkhaqlarının artırılması vətənin keşiyində dayanan insanlara göstərilən etimadı bir daha təsdiqlədi. Bundan əlavə, minimum əməkhaqqının artırılması Azərbaycanda aztəminatlı ailələrin maddi rifah halına müsbət təsirini göstərəcək. İqtisadi sahədə əldə edilmiş mötəbər uğurların sosial sferaya transformasiyası dövlətimizin başçısının bəyan etdiyi sosial iqtisadi kursun başlıca prinsipi olmaqla, cari ilin əvvəlindən etibarən ölkə vətəndaşlarının sosial təminatını əhəmiyyətli dərəcədə artırıb", - deyə Cəlil Xəlilov vurğulayıb.

Respublika Veteranlar Təşkilatının sədr müavini diqqətə çatdırıb ki, ümumilikdə 2019-cu ildə Prezident İlham Əliyevin imzaladığı qanunvericilik aktları üç milyona yaxın insanın sosial müdafiəsinin gücləndirilməsi sahəsində inqilabi addım oldu. Bütün bunlar, ilk növbədə, Azərbaycanda xalqın dövlətinə inamından, vətəndaşın hakimiyyətə göstərmiş olduğu etimaddan, inkişaf etmiş, rəqabətə davamlı iqtisadiyyatdan xəbər verir. Azərbaycançılıq məfkurəsinə əsaslanaraq həyata keçirilən daxili və xarici siyasi xətt dövlətin doğru əllərdə olmasının və xalq-lider birliyinin təzahürüdür.

"Veteranlar da hər zaman Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasəti dəstəkləyir, xüsusən sonuncu sərəncamların sosial sahədə əhəmiyyətli irəliləyişlərlə nəticələnəcəyinə dərin inam ifadə edirlər. Veteranlar xalqın birliyi və gənclərin vətənpərvər ruhda tərbiyə edilməsi üçün bundan sonra da əllərindən gələni əsirgəməyəcəklər", - deyə polkovnik C.Xəlilov bildirib.

# Elmar Məmmədyarov Filip Riker ilə görüşüb

Vaşinqtona səfəri çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov ABŞ Dövlət Katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Filip Riker ilə görüşüb.




XİN-dən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər ikitərəfli əməkdaşlıq gündəliyindəki bir çox məsələlər, o cümlədən siyasi, iqtisadi, ticarət və digər sahələrdə əlaqələr üzrə ətraflı fikir mübadiləsi aparıblar. ABŞ ilə Azərbaycan arasında əməkdaşlığın artan templə inkişaf etdiyi vurğulanıb.

Bölgədəki vəziyyət, xüsusilə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların cari vəziyyəti, eləcə də ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Vaşinqtonda keçiriləcək görüşdən gözləntilər barədə müzakirələr aparılıb.

Görüşdə, həmçinin Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji, tranzit və nəqliyyat layihələri, xüsusilə də Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi ilə bağlı fikir mübadiləsi aparılıb.

Habelə tərəflər qarşılıqlı maraq doğuran regional məsələləri müzakirə ediblər.

Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini Corc Kent də görüşdə iştirak edib.

## Sərəncamlar atılan inqilabi addımların məntiqi nəticəsidir



YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov Prezident İlham Əliyevin "Minimum aylıq əməkhaqqının artırılması haqqında" 18 iyun 2019-cu il tarixli Sərəncamı ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki, bu, cənab Prezident İlham Əliyev tərəfindən əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində 2019-cu ilin ilk aylarından atılan inqilabi addımların məntiqi davamıdır: "Çünki 2018-ci il aprel ayının 18-də keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev bəyan etdi ki, "Gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır". Sərəncama əsasən Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılacaq. Bununla da ölkəmizdə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu 40 faizədək üstələməsi təmin edilir".

"Sosial paket elan edilərkən Prezident İlham Əliyev bu paketin davam edəcəyini və artan iqtisadi resursların əhalinin maddi rifah halının yaxşılaşdırılmasına sərf ediləcəyini bəyan etmişdi. 2019-cu ilin sürətli iqtisadi artım ili olacağı da əvvəlcədən planlaşdırılmışdı və ilin 1-ci rübünün iqtisadi yekunları bunu bir daha sübut edir. Belə bir şəraitdə sosial addımların atılmasının iqtisadi əsasları da təmin edilməkdədir. Dövlət başçısının sözügedən Sərəncamı ilə ilin əvvəlindən elan edilmiş sosial paketin yeni mərhələsi başladıldı. Minimum əmək haqqının 180 manatdan 250 manata qaldırılması çox mühüm addımdır. Belə ki, minimum əmək haqqının yaşayış minimumundan çox olması yoxsulluq səviyyəsinin azaldılmasına da ciddi təsir edəcək. Digər tərəfdən, dövlət qulluqçularının, müəllimlərin, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların, hərbi və hüquq mühafizə orqanlarında çalışanların əmək haqqlarının 20-40 faiz artırılması insanların maddi rifah halına mühüm dəstək olacaq. Ölkədə inflyasiyanın səviyyəsinin çox aşağı olması artımın real dəyərinin yüksək olmasına imkan yaradacaq".

**Taleh Bağırov,**
***"İki sahil"***

# "Dayanıqlı inkişaf məqsədləri gənclər üçün"

## SUMQAYITDA YENİ AZƏRBAYCAN PARTİYASININ VƏ ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN TƏŞKİLATÇILIĞI İLƏ BU MÖVZUDA KONFRANS KEÇİRİLİB

Yeni Azərbaycan Partiyasının (YAP) və Sumqayıt Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə bu şəhərdəki Heydər Əliyev Mərkəzində "Gənclərin Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda konfrans keçirilib.

BMT-nin elan etdiyi 17 Dayanıqlı İnkişaf Məqsədinin (DİM) təmin olunması istiqamətində görülən işlərə töhfə vermək məqsədi daşıyan konfransın iştirakçıları əvvəlcə müasir müstəqil Azərbaycanın memarı və qurucusu, ulu öndər Heydər Əliyevin abidəsini ziyarət ediblər.




Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası katibliyinin rəhbəri Hüseyn Hüseynovun moderatorluğu ilə keçən konfrans işini iki paneldə davam etdirib.

Səhiyyə nazirinin müavini Elsevər Ağayev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədrinin müavini Aynur Sofiyeva, Milli Məclisin deputatları Tahir Mirkişili, Məlahət İbrahimqızı, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov panellərdə çıxış edərək Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində Azərbaycanda görülmüş işlər barədə iştirakçılara ətraflı məlumat veriblər.

**O.İsrafilov,**
***"İki sahil"***

# Ürəklərdə yaşayan Aqşin



Lerik rayonunun Soru kəndində kiçiklər də, böyüklər də Dövlətovlar ailəsinə böyük hörmət və ehtiram göstərirlər. Bu da ondan irəli gəlir ki, əzəldən xeyirxahlığı, düzlüyü, halallığı həyat amalı seçən təmiz, müqəddəs ocağın hər üzvü bir gündən olaraq ömrünü-gününü Vətənin, xalqın xoşbəxtliyi naminə yaşamaqda görür. Belə ailədən pərvazlanan Aqşinin də qəlbində Vətən eşqi, el sevgisi dərin idi.

Aqşin Tarverdi oğlu Dövlətov 1992-ci ildə 18 yaşı tamam olanda artıq Qarabağ torpaqları qan ağlayırdı. Hərbi xidmətə çağırılanda əlinə silah götürüb Ağdərə bölgəsində xidmətə başlayır. İlk gündən hər an Vətəninin taleyini düşünən cəsur əsgər müharibə meydanlarında qeyrətlə vuruşur, neçə-neçə erməni dığasının axırına çıxır. Göstərdiyi saysız-hesabsız igidlik Aqşinə inam, sevgi qazandırır. Onunla qürur duyub vuruşa gedən əsgərlərin sayı da çoxalır.

Aqşinin son döyüş yeri Ağdərə olur. Bu torpağın azadlığı uğrunda şəhid olur.

**Zəfər Orucoğlu,**
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Sosial müdafiənin gücləndirilməsi dövlət siyasətinin əsas xəttini təşkil edir

*Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin www.yap.org.az saytına müsahibəsi*



***- Hadi müəllim, bildiyimiz kimi, ötən dövr ərzində əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövlət başçısı tərəfindən mühüm Fərman və sərəncamlar imzalanıb. Bütün bunlar konkret olaraq faktlarda özünün əksini necə tapır?***

- Həqiqətən də Prezident İlham Əliyevin sosial sahə ilə bağlı qərarları, Fərman və sərəncamları inqilabi xarakter daşıyır. Bu yöndə qərarlar 2018-ci ildən etibarən xüsusilə intensivləşib. Bu istiqamətdə atılan addımlar müqayisəyə gəlməzdir. Bilirsiniz ki, ötən il seçkilərdə qələbə qazandıqdan sonra cənab Prezident İlham Əliyevin imzaladığı ilk Fərmanın - 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin Onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu.

Bütövlükdə, ötən bir il ərzində şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində vacib qərarlar verilib.

Belə ki, şəhid ailələri üçün verilən Prezident təqaüdü artırılıb, bu kateqoriyaya aid olan insanların mənzillərlə və avtomobillərlə təminatı daha da yaxşılaşdırılıb, eləcə də qaçqın və məcburi köçkünlər üçün aylıq sosial müavinət artırılıb, yeni şəhərciklər inşa edilərək istifadəyə verilib.

Bütün bunlarla yanaşı, bu ilin əvvəlindən minimum pensiyanın, minimum əməkhaqqının artırılması da vacib məqamlardan biri idi. Fevralın 25-də dövlət başçısının imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamı nəticəsində aprelin 1-dən bir sıra ödəmələr əhəmiyyətli dərəcədə artırılıb. Problemli kreditlərin həlli ilə bağlı dövlət başçısının verdiyi qərar və s. addımlar da bir daha təsdiqləyir ki, dövlət siyasətinin əsasında vətəndaş amili dayanır.

"2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır", - deyə bəyan edən cənab Prezidentin bu fikirləri Onun uğurlu sosial islahatlar paketinin nailiyyətləri kimi əhalinin rifah halının yaxşılaşdırılması sahəsində cari ilin ötən dövründə ciddi addımların atılması ilə real təsdiqini tapıb.

***- İyunun 18-də Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə minimum əməkhaqqı yenə də artırıldı, eləcə də müxtəlif kateqoriyalar üzrə çalışanların maaşlarında artım baş verdi. Bu barədə nə deyə bilərsiniz?***

- Prezident İlham Əliyev çıxışlarında dəfələrlə 2019-cu ilin əhalinin sosial müdafiəsinin güclənməsi ili olacağını bildirib. Dövlətimizin başçısının cari ilin əvvəlindən verdiyi qərarlar əhalinin rifahının daha da yaxşılaşmasını təmin edir. İyunun 18-də imzalanmış sərəncamlar da məhz bu məqsədə xidmət edir.

Azərbaycan Prezidentinin imzaladığı Sərəncamla minimum əməkhaqqı 180 manatdan 250 manata çatdırıldı. Bu da 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanların 600 mini dövlət qurumlarında çalışırsa, 350 mini özəl sektorda fəaliyyət göstərir. Bununla yanaşı, iyunun 18-də imzalanan sərəncamlarla dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqları nəzərəçarpacaq dərəcədə artırıldı. Bu sərəncamlar Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını, dövlətin hər bir vətəndaşın yanında olduğunu bir daha əyani şəkildə göstərir. Beləliklə, imzalanan hər bir Sərəncam Azərbaycan vətəndaşının rifahının yaxşılaşmasına yönəlib.

Bu gün ölkəmiz güclü iqtisadi imkanlara malikdir. Azərbaycanın iqtisadi qüdrəti, ixrac potensialı ilbəil artır, qeyri-neft sektoru inkişaf edir. Ölkəmizin təşəbbüsü ilə irimiqyaslı qlobal layihələr uğurla icra edilir. Görülən bütün bu işlərin nəticəsində isə hər bir Azərbaycan vətəndaşının rifah halının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ciddi addımlar atılır. Bu cür sosial qərarlar davamlı xarakter alıb. İlin sonunadək vaxtaşırı belə qərarlar veriləcək. Nəticədə vətəndaşlarımızın güzəranı daha da yaxşılaşacaq.

***- İlin sonuna qədər əhalinin sosial müdafiəsi istiqamətində daha hansı addımların atılması gözlənilir?***

- Azərbaycanda əmək pensiyalarının artırılması üçün qanunvericiliyə dəyişiklik edilir. Bilirsiniz ki, iyunun 20-də parlamentin Əmək və sosial siyasət komitəsində "Əmək pensiyaları haqqında" qanuna dəyişiklik layihəsi müzakirəyə çıxarılıb.

Dəyişiklik əmək pensiyalarının minimum məbləğinin artırılması ilə bağlıdır. Layihəyə əsasən, qanunun 6-1-ci maddəsinin (Əmək pensiyasının minimum məbləği) mətni yeni redaksiyada verilir. Yeni redaksiya belədir: "Əmək pensiyasının minimum məbləği 2019-cu il 1 oktyabr tarixindən 200 manat müəyyən olunur. Təyin edilən əmək pensiyasının məbləği əmək pensiyasının minimum məbləğindən aşağı olduqda, həmin məbləğə çatdırılmaqla ödənilir". Bu məsələ parlamentin plenar iclasına tövsiyə olunub və şübhəsiz ki, deputatlarımız bu qanunu birmənalı olaraq dəstəkləyəcəklər.

Qeyd etdiyim kimi, Azərbaycan sosialyönümlü dövlətdir və gələcəkdə də belə qərarlar qəbul ediləcək. Çünki əhalinin sosial müdafiəsinin gücləndirilməsi və yaxşılaşdırılması Azərbaycan dövlətinin və dövlət başçısının siyasətinin əsas xəttini təşkil edir.

# *Bəhruz Quliyev:* Yeni sosial paket vətəndaşların problemlərinə kompleks yanaşmanın təzahürüdür

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin minimum aylıq əməkhaqqının artırılması ilə bağlı növbəti Sərəncamı ilk növbədə, Azərbaycan xalqının rifahı və gələcəyi üçün həyata keçirilən sosial siyasətin məntiqi davamıdır". Bu fikirləri "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev dövlət başçısının minimum əmək haqqının artırılması ilə bağlı imzaladığı Sərəncama münasibətində bildirdi.

Baş redaktor qeyd etdi ki, Azərbaycan ictimaiyyəti bu addımı böyük ruh yüksəkliyi ilə qarşılayır və sosial inkişaf proseslərində xalqın rifahı naminə atılan addım kimi qiymətləndirir: "Ümumiyyətlə, sosial problemlərin həlli, vətəndaşların rifah halının yüksəldilməsi ilə bağlı atılan addımlar bilavasitə Azərbaycanın nəinki regionda, eyni zamanda, beynəlxalq aləmdə insan amilinə verdiyi dəyərin sübutudur".

Bəhruz Quliyevin sözlərinə görə, bu kimi qərarlar aparılan siyasətin mərkəzində insan amilinin dayanmasının göstəricisidir: "Biz əminik ki, hər bir Azərbaycan vətəndaşı davamlı olaraq bu qərarların bəhrəsini görür. Ölkənin iqtisadi inkişafı, ümumilikdə, Azərbaycan ailəsi-



nin sosial durumunun yaxşılaşmasına xidmət edir".

Ekspert onu da bildirdi ki, görülən işlər sabitliyin, Lider-xalq birliyinin nəticəsidir: "Ölkə başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını növbəti dəfə təsdiqləyən bu qərarlar ümumilikdə 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq".

**✍ Nilufər Mustafaqızı,**
***"İki sahil"***

# Sosial islahatların yeni mərhələsi



Bir neçə gün bundan öncə dövlətimizin başçısı cənab İlham Əliyev xalqın rifahı naminə növbəti uğurlu addım atdı. Bununla da Prezident İlham Əliyevin islahatlar yolu ilə başlatdığı sosial inqilabın növbəti mərhələsinə start verildi. Müəllimlərdən tutmuş hərbi qulluqçulara, özəl və dövlət sektorunda çalışanlara qədər 2 milyondan artıq vətəndaşın əməkhaqqının artması ilə nəticələnən sərəncamlar cəmiyyət tərəfindən sevinclə qarşılandı. Xüsusilə minimum əməkhaqqının 40 faiz artırılaraq, 180 manatdan 250 manata çatdırılması ölkədə yaşayış səviyyəsinin yüksəlməsinə birbaşa təsir edən qərardır. Məqsəd xalqın sosial rifahının daha da yaxşılaşdırılmasıdır və dövlət başçısının atdığı addımlar bir daha sübut edir ki, "Azərbaycanda dövlət siyasətinin mərkəzində insan amili dayanır" tezisi prioritet istiqamətdir.

**Milli Məclisin deputatı Eldəniz Səlimov məsələ ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki,** son sərəncamlarla ölkə Prezidenti bir daha Azərbaycan vətəndaşının yanında, onun sosial-iqtisadi durumunun, güzəranının yaxşılaşmasında maraqlı olduğunu göstərdi: "18 iyun tarixində imzalanmış sərəncamlar Azərbaycan əhalisinin, ölkə vətəndaşlarının önəmli bir təbəqəsinin sosial rifah halının yaxşılaşmasına mütləq şəkildə öz töhfəsini verəcəkdir. Bu sərəncamlar gerçəkdən tarixi və inqilabi sərəncamlardır. Hesab edirəm ki, bu sənədlər sonuncu olmayacaq, indiyə qədər olduğu kimi, bundan sonra da bu addımlar, bu artımlar davamlı xarakter daşıyacaq".

"2018-ci ildə Prezident İlham Əliyev tərəfindən aparılan iqtisadi islahatlar şəffaflığın səviyyəsini artırdı, iqtisadi artımın yeni mənbələrinin tapılmasına imkan yaratdı, qeyri-neft sektorunun sürətli inkişafını təmin etdi" deyən Milli Məclisin deputatı Tahir Mirkişili isə bildirdi ki, bütün bu nəticələr özünü həm də dövlət büdcəsinin gəlirlərinin artımında, inflyasiyanın həcminin kiçik olmasında, ixracın həcminin çoxalmasında və Azərbaycanın strateji valyuta ehtiyatlarının həcminin artmasında göstərdi: "2018-ci ildə qəbul olunmuş 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaitlər və 2019-cu ilin əvvəlindən başlayaraq artan büdcə gəlirləri hesabına cənab İlham Əliyevin sərəncamları ilə geniş sosial paket elan edildi. Bu sosial paket 3 milyondan çox insanı əhatə edərək minimum əmək haqlarının, pensiya təminatlarının, təqaüdlərin, sosial müavinətlərin və s. artmasına, problemli kreditlərin vətəndaşların xeyrinə həll olunmasına səbəb oldu. Sosial paket elan edilərkən Prezident İlham Əliyev bu paketin davam edəcəyini və artan iqtisadi resursların bir daha əhalinin maddi rifah halının yaxşılaşdırılmasına sərf ediləcəyini bəyan etmişdi. 2019-cu ilin sürətli iqtisadi artım ili olacağı da əvvəlcədən planlaşdırılmışdı və ilin 1-ci rübünün iqtisadi yekunları bunu bir daha sübut etdi".

Deputat onu da qeyd etdi ki, dövlət başçısının növbəti sərəncamları ilə ilin əvvəlindən elan edilmiş sosial islahatların yeni mərhələsi başladıldı: "Yeni sərəncamlar 2 milyon vətəndaşı əhatə edir və orta hesabla maaşların 40-50% artırılmasını nəzərdə tutur. Minimum əməkhaqqının 180 manatdan 250 manata qaldırılması çox mühüm addımdır. Xatırladım ki, minimum əməkhaqqının yaşayış minimumundan çox olması səviyyəsinin azaldılmasına da ciddi təsir edəcəkdir. Digər tərəfdən, dövlət qulluqçularının, müəllimlərin, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların, hərbi və hüquq mühafizə orqanlarında çalışanların və s. əməkhaqqlarının 20-40% artırılması insanların maddi rifah halına mühüm dəstək olacaqdır. Ölkədə inflyasiyanın səviyyəsinin çox aşağı olması artımın real dəyərinin yüksək olmasına imkan yaradacaqdır. Bütövlükdə Prezident sərəncamları ilə əmək haqlarının artımı büdcədən əlavə olaraq 1 milyard manat vəsaitin ayrılmasına səbəb olacaqdır. Dövlət büdcəsinin gəlirlərinin indiki artım sürəti və həcmi sosial paketin büdcə vasitəsilə tamamilə maliyyələşməsinə imkan yaradacaqdır. Əməkhaqlarının artımı həm də iqtisadi aktivliyi artıracaqdır".

**✍ Mənsumə Babayeva,**
***"İki sahil"***

## BAKI ALİ NEFT MƏKTƏBİNİN STARTAPI 2-ci YERİN QALİBİDİR



“Azərkosmos” ASC və “Social Innovation Lab (Sil.)” innovasiya mərkəzi tərəfindən həyata keçirilən “NewSpace” Biznes Akselerator Proqramının final mərhələsi (Demo Day) keçirilib.

Bakı Ali Neft Məktəbinin dosenti Əmir Rza Vəxşurinin elmi rəhbərliyi ilə tələbələrdən Elmar Əsgərzadə, Aleksandr Oborovski, Murad Rəhimov və Hüseyn Əliyevin yaratdıqları ThermoNorth startapı özlərinin “SolarPCM” layihəsi ilə 2-ci yerin qalibi olaraq 5000 manat məbləğində toxum investisiya əldə ediblər.

Startap ekosistemi tərəfindən maraqla qarşılanan proqrama 5 ölkədən ümumilikdə 40 müraciət edilib. Onların arasından seçilən ən potensiallı 10 startap layihəsi proqrama qəbul olunub. Bu ilin yanvar-may aylarını əhatə edən “Akselerasiya” dövründə onlara proqramın təşkilatçıları tərəfindən peyk təsvirləri, iş ofisi, texniki və biznes təlimlər, ekspert, mentor və s. dəstək göstərilib.

Bunlarla yanaşı, qaliblər “Azərkosmos” ilə birlikdə beynəlxalq texnologiya-innovasiya sərgi və konfranslarında iştirak edərək öz məhsullarını xarici bazara təqdim etmək imkanı əldə edəcəklər.

“NewSpace” Biznes Akselerator Proqramının əsas məqsədi kosmik xidmətlər və yaxın sahələrdə innovativ startap layihə və məhsullarının aşkar edilməsi, onların inkişafı və bazara çıxışının asanlaşdırılmasına dəstək göstərilməsidir.

## “BAKCELL” VƏ İNNOLAND BİRGƏ İNKUBASİYA PROQRAMININ İŞTİRAKÇILARINI SEÇDİ




“Bakcell” şirkəti və İNNOLAND Inkubasiya və Akselerasiya Mərkəzinin birgə inkubasiya proqramına birinci seçim başa çatıb.

Daxil olmuş 20-dən çox müraciət arasından seçilən 5 ideyanın müəllifləri öz startap layihələrini Seçim Komitəsi qarşısında təqdim edib. Ətraflı qiymətləndirmədən sonra, ən yüksək bal toplamış 3 startap komandası İNNOLAND və “Bakcell” şirkətinin birgə inkubasiya proqramında iştirak etmək hüququ qazanıb.

Seçimlərdən uğurla keçən “Face Ads”, “ToWaves” və “Bon.az” komandaları öz layihələrini reallaşdırmaq şansı əldə ediblər. “Face Ads” sosial media sahəsində icraçı və sifarişçi arasında əməkdaşlığı formalaşdırmaq üçün yaradılmış platformadır. “ToWaves” ortaq maraq və oxşar fikirləri olan insanları bir araya gətirən şəbəkədir. “Bon.az” isə istifadəçilərin onlayn alış-verişdən “cashback” əldə etməsi üçün yaradılan sistemdir.

Layihədən asılı olaraq, növbəti 3-6 ay ərzində startap komandaları INNOLAND və “Bakcell” təqdim olunan pulsuz ofis sahəsi, peşəkar məsləhətlər, avadanlıq, təlimlər və digər imkanlardan istifadə edə biləcəklər. Bu dəstək sayəsində gənclər öz layihələri üzərində daha effektiv şəkildə işləyərək startap ideyalarını uğurlu və innovativ biznesə çevirmək imkanına malik olacaqlar.

Seçilmiş komandalar inkubasiya müddəti ərzində həm INNOLAND həm də “Bakcell”in AppLab mərkəzinin imkanlarından yararlanacaqlar.

Xatırladaq ki, “Bakcell” şirkəti ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İNNOLAND İnkubasiya və Akselerasiya Mərkəzi arasında tərəfdaşlıq müqaviləsi imzalanıb. Həmin müqavilə çərçivəsində “Bakcell” və İNNOLAND yerli startaplar üçün birgə inkubasiya proqramı həyata keçirir. Bu əməkdaşlıq ölkənin bütün startap ekosisteminin inkişaf olunmasına böyük töhfə verməklə Azərbaycanda startap mədəniyyətinin formalaşdırılmasında strateji rol oynayir.

2014-cü ildən etibarən müxtəlif proqram təminatı və avadanlığın yaradılması ilə məşğul olan yerli startaplar və developerlər öz ideyalarını həyata keçirmək üçün “Bakcell” şirkətinin AppLab proqramından dəstək alırlar.

# TÜRKİYƏNİN BÖYÜK MÜBARİZƏSİ:
# Yaxın Şərqi risklər və təhlükələrdən xilas etmək xətti

**Ekspertlər Yaxın Şərqdə daha ciddi geosiyasi mübarizənin başladığı qənaətindədirlər. Xüsusilə Türkiyə ətrafında təhlükəli ssenarilər qurulur. Onu bir neçə istiqamətdən mühasirəyə alıb, sonra xaosa sürükləmək məqsədlərindən bəhs edilir.**




Hətta müxtəlif qondarma xəritələr belə tərtib edənlər vardır. Onların başlıca məqsədləri müsəlman ölkələrini kiçik hissələrə parçalamaqla bütövlükdə regiona ağalıq etməkdir. Ancaq, deyəsən, həmin dairələrin bir qismi bunun yanlış olduğunu anlamağa başlayıb. Müxtəlif səviyyələrdən eşidilir ki, “Yaxın Şərqə müdaxilə kökündən yanlış idi”. Lakin o da maraqlıdır ki, hələlik geri çəkilən yoxdur. Mübarizə yeni üsullarla davam etdirilir. Daha çox siyasi-diplomatik fəaliyyət üzərində dayanılır. Onun fonunda geosiyasi xarakterli addımlar atılır. Böyük bir ərazidə terror dəhlizi yaratmaq planından da vaz keçilmir. Bütün bunların kontekstində Türkiyənin apardığı geosiyasi mübarizənin bir sıra aspektləri üzərində geniş dayanmağa ehtiyac vardır.

### Təhlükəli ssenarilər: Ərdoğanın açıqlamaları işığında

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Yaxın Şərqdə böyük güclərin apardığı geosiyasi oyunların bir sıra məqamlarını açıqlayıb. Onun söylədiklərində bütövlükdə bölgədə vəziyyətin kifayət qədər mürəkkəb və risklərlə dolu olduğu tezisi öz ifadəsini tapıb. Başlıca təhlükələr olaraq Suriya ixtilafı, terrorçuluq, birtərəfli sanksiyalar, Qüdsün statusunun dəyişilməsinə olan cəhdlər göstərilib.

Bu problemlərin çərçivəsində ayrıca Türkiyə faktorunun müəyyən dairələri narahat etdiyini vurğulayan R.T.Ərdoğan, həmin istiqamətdə meydana çıxan məqamların qısa xülasəsini verib. Məlum olur ki, Yaxın Şərqdə geosiyasi oyunların mərkəzinə Türkiyə gətirilməyə çalışılır. Faktiki olaraq, onu bir neçə istiqamətdən mühasirəyə almağa çalışırlar. Bunu İraq, Suriya, Yunanıstan, Balkanlar istiqamətində həmin dairələrin atdıqları addımlar sübut edir. Bundan başqa, onlar açıq surətdə hansısa yeni “xəritə”dən bəhs edirlər. Həmin “xəritə”də müsəlman dövlətləri 3-5 yerə parçalanmış şəkildə göstərilir. Eyni zamanda, parçalanma dayanıqsız, asılı və məzhəb faktoruna görə bir-biri ilə düşmən olan kiçik ərazilərdən ibarət olmalıdır.

Maraqlıdır ki, bu cür vəziyyətin yaranmasında bəzi Yaxın Şərq ölkələrinin də iştirak etməyə çalışdığı haqqında informasiyalar yayılır. Bununla İslam ölkələrini bir-biri ilə qarşıdurmada olan düşərgələrə bölmək niyyəti aydın olur. Bunun kimlərə sərf etdiyi hamıya bəllidir.

Lakin məsələ hazırda elə ciddi səviyyədə özünü göstərir ki, konkret fəaliyyət olmasa, ilk baxışdan absurd təsiri bağışlayan qondarma xəritələr reallaşa bilər. Bu tezisdən çıxış edərək, Ankara bəyan edib ki, hansı planların hazırlandığından xəbərdardır və onu hazırlayanlara “meydan oxuyur”. Bu mövqenin ciddiyyətini daha dərindən dərk etmək üçün son bir neçə ildə Türkiyə ilə bağlı atılan addımlara nəzər salaq.

Əvvəlcə Suriya məsələsində Türkiyəni kənarda saxlamağa çalışdılar. Ancaq Ankaranın Suriyanın daxilində malik olduğu dayaqlar hamının ağlını başına gətirdi. İkinci mərhələdə Türkiyə əsas tərəfdaşlardan biri kimi Suriya problemini həll etməyə dəvət edildi. Lakin paralel olaraq Türkiyəni çətinliyə salmaq planı da işə başladı. Bunun nəticəsi Türkiyənin “Fərat qalxanı” və “Zeytun budağı”” adlı iki uğurlu hərbi əməliyyat keçirməsi oldu. Bu hərbi əməliyyatlar kifayət qədər peşəkarlıqla həyata keçirildi və düşmən darmadağın edildi. Onların nəticəsində Türkiyə İraqdan Aralıq dənizinə qədər uzanmalı olan terror dəhlizini iki yerdən qırdı. Bir sıra dairələrin terror qruplaşmalarını İraqdan çıxarıb Aralıq dənizinə daşımaq planları fiaskoya uğradı.

Bundan sonra Qəndildəkiləri fəallaşdırmağa çalışdılar. Bu dəfə hədəfləri İran sərhədindən Aralıq dənizinə qədər uzanan terror dəhlizi yaratmaq oldu. Türkiyə buna cavab olaraq “Pəncə” hərəkatını başladı. İndi həmin hərbi əməliyyatlar böyük uğurla gedir və terrorçular qaçmaqla canlarını qurtarmağa çalışırlar. Bununla Türkiyə həm İraq, həm də İranın təhlükəsizliyi üçün önəm kəsb edən bir hərbi zərbə ilə növbəti planları alt-üst etmiş olur. Hazırda terror dəhlizinin Aralıq dənizi ilə bərabər İran sərhədi hissəsi də bağlanmış haldadır. Qəndildə terrora başçılıq edənlər sağ qalmaq üçün əllərindən gələni edirlər.

Bunların fonunda Ankaranın terrorçuların Qara dəniz qrupunu tamamilə məhv etməsi çox əhəmiyyətli hadisə oldu. Bu olay, faktiki olaraq, terrorun Türkiyəyə yayıla bilməsi potensialını sıfıra endirdi. Üstəlik, adları xüsusi siyahıda olan və başlarına mükafat qoyulan terrorçular bir-bir ələ keçirilir. Bu o deməkdir ki, Türkiyə xüsusi xidmət orqanları xaricdə hazırlanan planları alt-üst etməkdədirlər.

Ancaq indi də ortaya yeni oyun atılır. Onun iki qanadı mövcuddur. Birinci qanad Aralıq dənizində Kıbrıs (Kipr) yaxınlığında Türkiyə üçün problem yaratmaq, konkret olaraq, Türkiyəni oradan təcrid edib, mühasirəyə almaq cəhdidir. Bunun üçün hətta aralarında müsəlman dövlətlərinin də olduğu beynəlxalq koalisiya yaradılıb. Həmin koalisiya Türkiyədən tələb edir ki, Kıbrıs adaları yaxınlığında enerji axtarışları aparmasın. Özləri isə orada axtarış aparıb, enerji daşıyıcıları hasil etməyə çalışırlar.

Ankara buna cavab olaraq, bölgəyə iki neft və qaz kəşfiyyat-axtarış gəmisi göndərib və iş aparır. Əks tərəf ABŞ və Avropa İttifaqını da prosesə cəlb etməyə başlayıb. Amerika və Avropa İttifaqı, faktiki olaraq, Türkiyəyə bölgədən çəkilmək ultimatumunu veriblər. Ankaranın cavabı konkretdir: “Bu tələblərin onun üçün heç bir əhəmiyyəti yoxdur”! Yəni sözü olan meydana çıxsın. Buna isə risk edən hələ tapılmır.

### Mühasirə dağılır: Ankaranın cəsarətli addımları

Bununla Türkiyəni dənizdən təcrid etməyə göstərilən cəhdlər də hələlik boşa çıxır. Onların tam aradan qalxdığını demək olmaz. Ancaq aydın görünür ki, Türkiyə çox qətiyyətlidir və ona mane olmaq istəyənlərə sarsıdıcı zərbələr endirmək niyyətindədir. Bu cür vəziyyət proseslərin ikinci qanadı üzrə Suriyanın şimal hissəsində hazırda cərəyan edən hadisələr prizmasından da xeyli təhlükəli görünür. Konkret olaraq, İdlib bölgəsində hərbi təxribatlar törədildi. O cümlədən Türkiyə Silahlı Qüvvələrinin İdlibdə yerləşən hərbi birləşmələrinin müşahidə məntəqəsi raket atəşinə tutuldu. Ankaranın reaksiyası sərt oldu: əgər hücumlar davam etsə, ciddi qarşılıq veriləcək.

Paralel olaraq, İdlibdə yerləşmiş dinc əhalini bombalamağa başladılar. Bəşər Əsədə bağlı hərbi qruplar müxalifətin yerləşdiyi bir neçə məntəqəni kənar dəstəklə ələ keçirdi. Ancaq sonradan müxalif güclər şiddətli hücumla rejim qüvvələrinə ağır zərbələr vurub onları geri çəkilməyə məcbur etdilər.

Lakin təcrübə göstərir ki, iş bununla bitməyib. İndi Yaxın Şərqin iki müsəlman ölkəsi Suriyanın PYD/YPG-nin nəzarətində olan hissəsinə nümayəndələr göndərərək, əşirət rəhbərlərini Türkiyə ilə münasibət qurmamağa çağırırlar. Bununla onlar Yaxın Şərqin yad ssenarilər üzrə parçalanması planına xidmət etdiklərini göstərirlər. Lakin yerli ərəblər Türkiyəyə çox isti münasibətdədir və Ankaranı onları xilas etməyə səsləyirlər.

Beləliklə, hazırda Türkiyə üçün ən önəmli məsələ Qəndil-Sincar-Kərkük-Münbic-Tel Rifat-Kobani xəttində terror dəhlizini dağıdıb, sabitlik yaratmaqdan ibarətdir. Buna nail olunsa, onda İran sərhədindən tutmuş Aralıq dənizinə qədər geniş bir ərazidə terror zonası yaratmaq istəyənlərin bütün planları iflasa uğramış olar. Onlar üçün bu dəhlizin strateji əhəmiyyəti çox böyükdür. Çünki faktiki şəkildə uzaq Çin və Rusiyaya qədər geniş bir ərazidə terroru sürətli, səmərəli və təhlükəsiz yolla “bəsləmək” imkanı əldə edirlər. Türkiyə terror dəhlizini dağıtmaqla əslində Avrasiyanı terrordan xilas etmiş olur. Yəni məsələ ancaq Türkiyə, İraq və İranla məhdudlaşmır.

Əlbəttə, düşmən dairələr yalnız terror metodundan istifadə etmirlər. Onlar daxildə hakimiyyətin qeyri-legitimliyinə nail olmaq üçün ona qarşı çirkin kampaniyalar təşkil edir, təxribatlar törədir, seçkilərə müdaxilə etməyə çalışırlar. Türkiyə dövlət olaraq bu cəbhədə də böyük mübarizə aparır. Hələlik düşmənlərin bütün planları alt-üst olur. İstanbul bələdiyyəsinə seçkilərin sakit, demokratik və şəffaf keçməsi bu baxımdan olduqca vacibdir. Bu seçki türk demokratiyasının təntənəsinə çevriləcək!

Bütün bunlar açıq göstərir ki, Türkiyə tarixi və strateji bir mübarizə aparır. Türkiyənin qələbəsi haqqın, ədalətin, demokratiyanın, müstəqil dövlətçiliyin qələbəsi olacaq. Onun müsbət təsiri qonşu regionlara, o cümlədən Qafqaza da yayılacaq. Burada mövcud olan münaqişələrin ədalətli həlli üçün əlavə şanslar meydana gələcək. Və Rusiya ilə birgə həmin münaqişələri həll etmək üçün tarixi bir fürsət yaranacaq. Sirr deyil ki, erməni terroru hələ də bütün Cənubi Qafqaz üçün bir təhdid mənbəyi olaraq qalır. Onun aradan qaldırılması bütün regiona sülh, barış və əməkdaşlıq gətirəcək. Bundan faydalananlar sırasında erməni xalqı da ola bilər.

Türkiyənin apardığı böyük geosiyasi mübarizənin necə nəticələnəcəyini indidən demək çətindir. Çünki müasir geosiyasi dinamika olduqca mürəkkəb şərtlər daxilində formalaşır. Onun qeyri-müəyyənliyi, riskliliyi istisna deyil. Lakin bu, bir şərəf yoludur. Onu getmək zəruridir.

**Newtimes.az**

YUBİLYARA TƏBRİK

# ODLAR YURDUNUN PARLAQ ZƏKASI

**Tarix bir güzgüdür. Bu güzgüyə baxdıqda yalnız hər şeyi görmək mümkün deyil, çünki tarixin güzgüsü bütün şüurlu həyatını xalqına, Vətəninin inkişafına həsr edən şəxsiyyətləri əks etdirir. Belə şəxsiyyətlərdən biri də Bağır Ələkbər oğlu Süleymanovdur. Bağır Süleymanov 1959-cu il iyun ayının 22-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1981-ci ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Univerisiteti) qazneftmədən fakültəsini bitirmişdir.**

B.Süleymanov 1987-ci ildə texnika elmləri üzrə fəlsəfə doktoru, 1997-ci ildə texnika elmləri doktoru elmi dərəcəsi, 2011-ci ildə isə ixtisas üzrə professor elmi adını almışdır. O, 2014-cü il tarixindən AMEA-nın Yer Elmləri Bölməsinin "Neft və qaz yataqlarının işlənməsi" ixtisası üzrə AMEA-nın müxbir üzvü, 2019-cu ildən isə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Yer Elmləri üzrə Ekspert Şurasının sədri seçilmişdir.

B.Süleymanov əmək fəaliyyətini keçmiş "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İstehsalat Birliyinin N.Nərimanov adına Neft və Qaz Çıxarma İdarəsində başlayaraq 1981-1985-ci illərdə neft və qaz hasilatı üzrə operator, mühəndis vəzifəsində işləmişdir. O, 1985-1988-ci illərdə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Neft yataqlarının işlənməsi və istismarı kafedrasında assistent, 1988-2000-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunun Neft və qazın qeyri-xətti mexanikası şöbəsində böyuk mühəndis, aparıcı və baş elmi işçi vəzifələrində çalışmışdır. 2000-ci ildən başlayaraq SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunda neft və qaz hasilatı sahəsində elmi işlər üzrə direktor müavini, 2001-2006-cı illərdə direktor vəzifəsini icra etmişdir. 2006-cı ildən isə neft və qaz hasilatı üzrə direktor müavini vəzifəsini uğurla icra edir.

AMEA-nın müxbir üzvü B.Süleymanov elmi fəaliyyətinin əsas istiqamətini neft yataqlarının işlənməsində heterogen sistemlərin qeyri-bircinsli məsaməli mühitlərdə süzülməsinin fiziki və riyazi modelləşdirilməsi əsasında, layların neftveriminin artırılması, quyudibi zonanın işlənməsi və su axınlarının təcrid olunmasının yeni texnologiyaların yaradılması və uğurla tətbiq olunması; Qeyri-bircins laylarda qeyri-Nyuton mayelərinin axını zamanı S-vari filtrasiya qanununun mövcudluğunun təyin edilməsi, təcrübi və nəzəri cəhətdən əsaslandırılması; Qazlı Nyuton və qeyri-Nyuton mayelərin təzyiqin böhrana qədər sahələrində stasionar və qeyri-stasionar süzülməsi hərtərəfli öyrənilməsi təşkil edir. Apardığı tədqiqatlar göstərmişdir ki, maye sərfi kəskin surətdə (2-3 dəfə) artır; qazlı qeyri-Nyuton mayelər üçün yeni effekt təyin edilmişdir. Belə ki, göstərilən halda reoloji əyrilər müəyyən şəraitdə tam modifikasiyaya məruz qalır, yəni dilatant xüsusiyyətinə malik olan maye psevdoplastik mayeyə çevrilir və ya əksinə; göstərilən nəticələrin fiziki mahiyyətini, mexanizmini vermiş və sürüşmə effekti əsasında nəzəriyyəsini işləmişdir; neft yataqlarının işlənməsinin statistik modelləşdirilməsi nəticəsində işlənmə prosesinin mərhələlərə bölünməsinin, maksimal hasilatın və çıxarıla bilən ehtiyatların təyini metodikasını işləmişdir; fraktal və multifraktal ölçülərin istifadəsi əsasında neft yataqlarının işlənməsinin analizinin yeni üsulları işlənmiş və tətbiq etmişdir; riyazi modelləşdirmə əsasında müxtəlif geoloji-texniki tədbirlərin tətbiqi üçün namizəd quyuların seçilməsi üsulları işlənmişdir; neft hasilatı quyularında müxtəlif texnoloji proseslərin modelləşdirilməsi nəticəsində yeni tipli quyu avadanlığı - dalma nasosları, yeraltı təmiri avadanlığı, quma qarşı süzgəclər və s. işlənmiş və uğurla tətbiq edilmişdir; müxtəlif reagentlər - deemulqatorlar, depresatorlar, səthi aktiv maddələr və s. işlənmiş və uğurla tətbiq olunmuşdur. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə yaradılmış bir sıra avadanlıqlar və reagentlər sənayedə tətbiq edilmiş və hazirda tətbiq olunmaqdadır.

B.Süleymanov 1998-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Yer Elmləri üzrə Ekspert Şurasının üzvü, 2003-2006-cı illərdə isə sədri olmuşdur. 2000-2001-ci illərdə Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsinin yanacaq və energetika üzrə problem şurasının sədr müavini, 2003-2009-cu illərdə "Azərbaycan neft təsərrüfatı" jurnalının redaksiya heyətinin üzvü seçilmişdir. 2003-2008-ci illərdə "Şahdəniz" qazkondensat yatağının işlənməsi üzrə rəhbər komitənin üzvü, 2004-cü ildən Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında enerji resurslarının səmərəli istifadə edilməsi üzrə komissiyanın sədr müavini olmuşdur. 2009-cu ildən ABŞ-ın Neftçi Mühəndislər Cəmiyyətinin (SPE), 2019-cu ildən Rusiya Təbiət Elmləri Akademiyasının Neft və qaz seksiyası üzrə xarici üzvüdür.

B.Süleymanov 2009-cu ildən 2016-cı ilədək "Neftqazelmitədqiqatlayihə" İnstitutunun "SOCAR Proceedings" ("Elmi əsərlər") jurnalının redaksiya heyətinin üzvü, sonradan isə həmin jurnalın baş redaktorunun müavinidir. Həmçinin 2016-cı ildən "Territoriə Neftegaz" (Rusiya) elmi-praktiki jurnalının, "Vesti qazovoy nauki" (Rusiya) elmi-texniki toplusunun, 2018-ci ildən "AMEA-nın Xəbərləri, Yer elmləri" jurnalının baş redaktorunun müavinidir. Journal of Petroleum Science & Engineering, International Journal of Oil, Gas and Coal Technology, Physics of Fluids, Industrial & Engineering Chemistry Research journal, Energy & Fuels, Colloids and Surfaces A: Physicochemical and Engineering Aspects journal, Journal of the Chemical Society of Pakistan, RSC Advances jurnallarının rəyçi ekspertidir.

B.Süleymanov 216 elmi əsərin, o cümlədən 72 müəlliflik şəhadətnaməsi, ixtira və patentin, 1 monoqrafiyanın müəllifidir. Elmi əsərlərinin çox hissəsi xaricdə - ABŞ, İngiltərə, Almaniya, Rusiya və digər qabaqcıl ölkələrdə dərc olunmuş, 34 ixtirası Rusiya Federasiyası patenti, 17 ixtirası isə Avrasiya patenti almışdır. Əsərlərinə tanınmış beynəlxalq jurnallarda mütəmadi istinad olunur. Onun dünyanın ən nüfuzlu elm və təhsil ocaqlarının aparıcı alim və mütəxəssisləri ilə daimi ünsiyyəti öz bəhrələrini verməkdədir. Belə ki, elmi rəhbərliyi altında "Neft və qaz yataqlarının işlənməsi və istismarı" və "Dəniz faydalı qazıntı yataqlarının işlənməsi texnologiyası" ixtisasları üzrə 16 fəlsəfə və 1 elmlər doktoru dissertasiyası müvəffəqiyyətlə müdafiə olunmuşdur. Hazırda rəhbərliyi altında SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunda, AMEA-nın riyaziyyat və mexanika institutunda Qazaxıstan respublikasının vətəndaşları da olmaqla 37 aspirant və dissertant çalışır. Bu əməyinin nəticəsi olaraq 1985-ci ildə "SSRİ ixtiraçısı" döş nişanı, 2004-cü ildə isə Respublikanın Neft və qaz sənayesinin inkişafında xüsusi xidmətlərinə görə SOCAR-ın Fəxri Fərmanı, 2014-cü ildə ictimai-siyasi fəaliyyətinə görə Yeni Azərbaycan Partiyasının Yasamal rayon təşkilatının Fəxri Fərmanı, 2013-cü ildə ixtiraçılıq sahəsində birinci respublika müsabiqəsinin qalibi, 2017-ci ildə Ukraynanın İvano-Frankovsk Dövlət Neft və Qaz Texniki Universiteti qarşısında xidmətlərə görə medalı, 2017-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin neft sənayesi işçilərinin təltif edilməsi haqqında Sərəncamı ilə "Tərəqqi" medalı, 2018-ci ildə Rusiya Təbiət Elmləri Akademiyasının "Akademik Azad Mirzəcanzadə beynəlxalq gümüş medalı" ilə təltif olunmuşdur.

Hər şeydən öncə qeyd edim ki, sözün həqiqi mənasında, gözəl insan, görkəmli ziyalı kimi nüfuz qazanmış Bağır müəllimi



xalqımızın yetişdirmiş olduğu neftçi nəslinin görkəmli nümayəndəsi kimi hələ gənclik illərdən tanıyıram. O zamanlar adını tez-tez eşitdiyim Bağır müəllim həmişə yüksək mənəviyyatı, vətənpərvərliyi, xeyirxahlığı, eyni zamanda, əqidəliliyi, prinsipiallığı, əməksevərliyi və əzmkarlığı ilə sayılıb-seçilən bir insan kimi təsəvvür etmişəm. Sonralar tale elə gətirib ki, neftçi fəaliyyətimlə əlaqədar onu daha yaxından tanımış və ondakı yüksək insani dəyərlərin canlı şahidi olmuşam.

Bağır müəllim xalqımızın zəngin milli mənəvi, əxlaqi dəyərlərinə yaxından bələd olan, məzmunlu, çoxşaxəli həyat yolu keçmiş və 60 illik ömrünü şərəflə yaşamış ziyalılarımızdandır. O, görkəmli ictimai xadim kimi də Azərbaycan cəmiyyətinin böyük etimadını qazanıb. Yüksək təşkilatçılıq, idarəçilik keyfiyyətləri sayəsində yüzlərlə insan bu gün cəmiyyətimizdə öz layiqli yerini tutub. Belə mənalı, maraqlı ömür yaşamaq hər insanın taleyinə, qismətinə yazılmır. Onun mənalı ömür yolu indiki və gələcək nəsillər üçün əsl örnəkdir. O, hər şeydən öncə gözəl bir vətəndaşdır. Məhz bu amil onun həm də görkəmli bir ziyalı kimi tanınmasına imkan verib. Bütün fəaliyyəti boyu əxlaqi baxımdan yüksəkdə dayanan dəyərlərə tapınıb və bu dəyərləri qorumaq istəyi həmişə ədalətli cəmiyyət arasında olmağından irəli gəlib. Bağır müəllimin vətəndaşlıq mövqeyindən danışarkən, xatırlatmaq yerinə düşər ki, o, dövlətçilik ənənələrinin qorunmasında fəallıq göstərən müasirlərimizdəndir.

Hər zaman obyektivlik prinsipinə əsaslanan Bağır müəllim yüksək peşəkarlıq səviyyəsi, səmərəli və məhsuldar fəaliyyəti, əldə etdiyi nailiyyətləri ilə SOCAR rəhbərliyinin və kollektivin diqqət mərkəzində dayanaraq hörmət və rəğbətini qazanıb. Əməksevərlik, insanpərvərlik və qayğıkeşlik kimi nəcib insani keyfiyyətlərə malik olan Bağır müəllim rəhbərlik etdiyi əməkdaşlarına hər zaman qayğı ilə yanaşır, onların problemləri ilə yaxından maraqlanır.

İyun ayının 22-də Bağır müəllimin 60 yaşı tamam olur. 60 müdriklik yaşıdır. Ancaq mən deyərdim ki, müdriklik Bağır müəllimin yaşında deyil, xarakterindədir, mənəviyyatındadır. Xaraktercə, mənəviyyatca müdrik olan insanların haqqında ömrünün istənilən yaş mərhələsində qürurla, alnıaçıq, üzüağ danışmaq olar. Ömrünün 60-cı baharını yaşayan Bağır müəllim düz 19 ildir ki, institumuzda direktor müavinidir. Təkcə bu müddətdə deyil, bütün ömrü boyu şəxsiyyəti təsdiq edən sınaqlardan uğurla və bacarıqla çıxıb. Mən kiminsə ondan narazı qaldığını heç ağlıma belə gətirə bilmirəm. İstər kollektivinin, istərsə də cəmiyyətimizin müxtəlif təbəqələrindən olan insanların onun haqqında həmişə yüksək fikirdə olduğunun dəfələrlə şahidi olmuşam. Bağır müəllimin həyat kredosunda qeyd etdiyimiz kimi, ilk növbədə, onun təmənnasız keyfiyyətləri dayanır. O, harada olur-olsun, Vətənimizi təmsil və təbliğ edir. Belə olmasaydı, uzun müddət çalışdığı sahədə bu qədər hörmət və nüfuz sahibi olmazdı. Təsadüfi demirlər ki, vətənpərvərlik ən dərin hörmətə layiq gözəl bir keyfiyyətdir. Vətənpərvərlik özünə hörmətdən, özünü sevməkdən başlayır, daha sonra milləti sevirsən və yaxşı sevirsən və nəhayət dünyanı sevə biləcək vətəndaşlıq haqqı qazanırsan.

Əziz Bağır müəllim! Siz elmi fəaliyyətiniz və insani keyfiyyətləriniz ilə böyük hörmət və nüfuz qazanmış şəxsiyyət bu gündə əzmkarlıqla respublikamızın neft-qaz sənayesinin inkişafında müstəsna rol oynayan neftçi alimlərimizdənsiniz. Siz olduqca şərəfli, nəsillərə örnək olan bir ömür yolu keçmisiniz. Biz Sizinlə həm fəxr edir, həm də tükənməz qürur hissi keçiririk ki, uzun illərdir eyni sahədə çalışırıq. Bizim düşüncəmizdə Siz hər zaman çətinliklərin üzərinə mərdliklə yeriyən, əqidəsinə, prinsiplərinə, vətəninə, dövlətçiliyə sədaqətlə xidmət etmək iqtidarında olan işıqlı bir şəxsiyyət, qayğıkeş rəhbər, əsl ziyalısınız.

Hörmətli Bağır müəllim! Sizi, həyatınızın bütün mənalı və gənc dövrünü neft sənayesinin ən çətin və məsuliyyətli sahəsi olan "Neft və qaz yataqlarının işlənməsi və istismarı" elminə və praktikasına həsr etmiş şəxsiyyəti 60 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, respublikamızın çiçəklənməsi və neft elminin inkişafı naminə xidmətlərinizdə uğurlar diləyir, Sizə möhkəm cansağlığı, uzun ömür, əmək fəaliyyətinizdə yeni-yeni uğurlar, şəxsi həyatınızda xoşbəxtlik, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Vətənimizin daha da möhkəmlənməsi və inkişafı naminə həyata keçirdiyiniz şərəfli və məsul işlərinizdə müvəffəqiyyətlər arzulayırıq. Arzu edirik ki, həmişə olduğu kimi, başladığınız işləri böyük enerji ilə davam edəsiniz.

Qolunuzdan qüvvət, gözünüzdən nur, iradənizdən möhkəmlik və biliyinizdən zənginlik əskik olmasın!

Dərin hörmətlə,

**"Neftqazelmitədqiqatlayihə" İnstitutunun kollektivi adından Direktor F.İsmayılov**

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**müxtəlif gücdə MEDN tipli su nasoslarına olan tələbatını təmin etmək məqsədi ilə (11076AM-19) açıq satınalma müsabiqəsi elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı (forma əsas şərtlər toplusunda veriləcəkdir);
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 01.08.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, ingilis və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 08.08.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri müvafiq etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə birlikdə qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 354 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

* İştirak haqqı heç bir halda geri qaytarılmır.
* Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, Lot nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin şərtlər toplusunda qeyd olunan müddət üzrə yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqə təklifinin təminatı:***

*I. 13000.00 (on üç min) AZN və ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə təklifin bank təminatı tələb olunur.*

*II. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə ayrı zərfdə təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.*

*III. Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.*

*IV. Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir və razılıq əldə etməlidir.*

*V. Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.*

*VI. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən maksimal olaraq 30% avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.*

*VII. Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.*

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, "Azneft" İB
**Əlaqələndirici şəxs:** Nərgiz Məmmədova
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 521 00 00 - 11 073 (daxili)
korporativ nömrəsi: +99412 521 10 73 (direkt)
korporativ elektron ünvanı: nargiz.jalilova@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 08.08.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30 da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

SOCAR

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Metanol zavodu

**işçi kollektivi üçün fərdi mühafizə vasitələri və xüsusi geyimlərin satın alınması məqsədi ilə açıq satınalma müsabiqəsi (37018AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 10.07.2019-cu il, Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 19.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 236 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:30-dan 16:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Şirkətin adı: Azərbaycan Dövlət Neft Şirkətinin Metanol Zavodu
VÖEN: 1101883811
Hesab nömrəsi : AZ16PAHA38040AZNHC0100095120
Muxbir hesab: AZ82NABZ01350100000000071944
Bank Məlumatları:
Kod: 505141
VÖEN: 1700767721
S.W.I.F.T BİK: PAHAAZ22
Hüquqi ünvan: AZ1080, BAKI ŞƏHƏRİ QARADAĞ RAYONU, SALYAN ŞOSSESİ, ev 22, 22-Cİ KM*

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsini 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***

Bakı şəhəri, Qaradağ rayonu, Salyan şosesi ev 22,22-ci km
SOCAR, Metanol zavodu
**Əlaqələndirici şəxs:**
Qasımov İsa
Maddi-texniki təchizat və satınalmalar şöbəsi, şöbə böyük mühəndisi
Telefon: (+99 412) 521-00-00 (37104)
isa.v.qasimov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 19.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/

**Metanol zavodunun Satınalmalar qrupu**

# *Mahir Abbaszadə:* Azərbaycan sosial sabitlikdən sosial rifah dövlətinə çevrilir

**Bu gün Azərbaycan sosial-iqtisadi həyatın bütün sahələrində sürətlə inkişaf edir. Ötən 16 ildə uğurla aparılan sosial-iqtisadi islahatların, Dövlət proqramlarının, Fərman və sərəncamların icrasının nəticəsi olaraq respublikamız dünyanın sürətli inkişaf yolunda olan dövlətlərindən biri kimi tanınır. Dünyada baş verən iqtisadi böhran nəticəsində bir çox inkişaf etmiş ölkələr bir sıra sosial proqramları təxirə salsalar da ölkəmizdə bütün sosial proqramlar uğurla icra etdirilir.**



**Milli Məclisin deputatı, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondunun direktoru Mahir Abbaszadə ikisahil. TV-yə açıqlamasında bildirdi ki,** Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti demokratik, azad və müstəqil dövlət quruculuğu sahəsində böyük nailiyyətlərlə müşayiət olunur. Ölkə başçısının uğurlu siyasəti nəticəsində inkişafın Azərbaycan modeli formalaşıb ki, bu da dünya ölkələri üçün nümunədir. 2025-ci ilədək Azərbaycan qarşısına məqsəd qoyub ki, dünyanın inkişaf etmiş dövlətləri sırasına çıxsın. Ölkəmizdə sosial müdafiə sistemində aparılan islahatlar xalqın rifahının yaxşılaşmasına xidmət edir. Bu istiqamətdə ardıcıl addımlar atılır. Əhalinin həssas qrupları ilə bağlı imzalanan Sərəncam və fərmanlar 2 milyona qədər əhalini əhatə edib, 2 milyard manat vəsait ayrılıb. Son Sərəncam və fərmanlar, ümumilikdə iki paket sənədlər qrupu 2 milyon nəfərə qədər insanın gəlirlərinin artmasına xidmət edəcək. Təkcə minimum əməkhaqqının artırılması 600 min Azərbaycan vətəndaşının güzəranını əhəmiyyətli dərəcədə yüksəldəcək.

M. Abbaszadə qeyd etdi ki, Prezidentin maaş artımı ilə bağlı imzaladığı sosial islahat paketi Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərəcək. Prezident İlham Əliyev 2019-cu ili əhalinin sosial müdafiəsinin gücləndirilməsi ili kimi səciyyələndirib. İyunun 18-də ölkə başçısının imzaladığı 17 sərəncamla minimum əmək haqqı, həmçinin bir sıra dövlət qurumlarında çalışan şəxslərin əmək haqqında kəskin artım edilib. Ölkə başçısı tərəfindən minimum əməkhaqqı məbləği 40 faizə yaxın artırılaraq 250 manata çatdırılıb ki, bu da özəl sektorda çalışan 350 min vətəndaşla yanaşı, dövlət sektorunda Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan 600 minə yaxın şəxsin əməkhaqqısının artımına səbəb olacaq.

Bu gün ən sevindirici hallardan biri odur ki, pensiyanın minimum həddi 116 manat idi, sonra bu 160 manata qaldırıldı. Prezidentin son Sərəncamı ilə həmin məbləğ 200 manata çatdırılır. Bunun hesabına xeyli pensiyaçının gəlirləri artır. Bu da 660 min pensiyaçının gəlirlərinin artmasına xidmət edəcək.

Mahir Abbaszadə vurğuladı ki, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan bir sıra şəxslərin maaşı 40 faiz artırılıb. Bu da böyük bir qrup əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasına xidmət edəcək. Müəllimlərimizin də rifah halının yaxşılaşması üçün maaşlarında 20 faiz artım nəzərdə tutulub. Bu da 160 min nəfərin sosial durumunu yaxşılaşdıracaq. Dövlət başçısı həmişə bəyan edib ki, ölkədə iqtisadiyyat inkişaf etdikcə, maliyyə imkanları artdıqca, bu, son nəticədə Azərbaycan vətəndaşlarının güzəranının yaxşılaşmasına xidmət edəcək. Azərbaycan sosial sabitlikdən sosial rifah dövlətinə çevrilir. Bu istiqamətdə ardıcıl iş aparılır.

Həmsöhbətimiz xüsusi olaraq vurğuladı ki, Prezident İlham Əliyev bu ilin əvvəlindən ölkədə böyük sosial paketin icrasına başlandığını elan etmişdi. Sosial paketin tərkib hissəsi olaraq minimum əməkhaqqının, minimum pensiyanın məbləğləri, əlillərə verilən təqaüdlər ciddi şəkildə artırılıb. Eyni zamanda, Prezidentin Fərmanı ilə 2015-ci il devalvasiyalarından əziyyət çəkən vətəndaşlara dəstək üçün dövlət büdcəsindən xarici valyutada kredit götürən 600 min nəfərdən çox şəxsə kompensasiya ödənilib. Ümumilikdə bu ilin əvvəlində elan olunmuş sosial paket 3 milyon nəfərə yaxın insanı əhatə edib.

Göründüyü kimi, dövlətin həyata keçirdiyi iqtisadi inkişaf tədbirləri sistemli hal alır. Bütün bunlar həm də təsdiq edir ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində iqtisadi inkişaf və insan amili durur.

✍ **Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

# Əli Kərimlinin tərəfdarları nədən cin atına miniblər?



**Taleh Bağırov**

Özünə və yaxın dairələrinə məxsus internet televiziyalarda çıxış edərək demokratiyadan, insan hüquq və azadlıqlarından, mətbuat sərbəstliyindən dəm vuran AXCP sədri Əli Kərimlinin bu azadlıqları ən kobud formada pozanlardan biri olması bir daha təsdiq edildi. Məsələ bundadır ki, bu günlərdə ABŞ-da yaşayan azərbaycanlı jurnalist və bloqqer İsmayıl Cəlilov AXCP-çi internet-trolların hücumundan şikayətləndiyi videomüraciətlə çıxış edib. Jurnalistin sözlərinə görə, ona qarşı kampaniya "Youtube" kanalındakı müsahibələrdən birində AXCP lideri Əli Kərimlinin ünvanına tənqidi fikirlərin səslənməsindən dərhal sonra İsmayıl Cəlilovun "Facebook" sosial şəbəkəsindəki səhifəsinə Əli Kərimlini dəstəkləyən internet trolları tərəfindən təhqirlər yağmağa başlayıb.

"Mənim "Youtube" kanalımda D18 hərəkatının lideri Ruslan İzzətli ilə müsahibə çıxdı və müsahibəsində o, AXCP lideri Əli Kərimlini yüngül formada tənqid edib. Həmin videoda təhqir olmayıb. Jurnalist olaraq, mən heç vaxt imkan verməzəm ki, efirimdə kiminsə ünvanına təhqir səslənsin. Lakin bundan dərhal sonra mənim səhifəmə AXCP-nin trolları hücum çəkdilər və təhqiramiz şərhlər yazmağa başladılar. Adi tənqidə şəxsiyyətin alçaldılması ilə cavab verən bu qrupa nə deyəsən?", - deyə Cəlilov bildirib.

Bloqqer bildirib ki, dəfələrlə dəvət edilməsinə baxmayaraq, Əli Kərimli onun efirinə qatılmaqdan imtina edib: "Çünki mənim kanalımı çox kiçik hesab edir. 4 min nəfərlik auditoriyam onun üçün çox balacadır. Amma əgər məndə belə az tamaşaçı varsa, nəyə görə Əli Kərimlinin tərəfdarları kanalımdan belə qorxurlar? Əli Kərimli, mən sizə müraciət edirəm, tərəfdarlarınıza deyin ki, media nümayəndələrinə hücum etmək olmaz. Onları yığışdırın. Məndə belə bir qorxu yaranır ki, siz hakimiyyətə gəlsəniz, nə baş verər? Müxalifətdə olduğunuz halda tərəfdarlarınız jurnalistlərə hücum edir. Əgər real hakimiyyət qazansanız, jurnalistlərin vəziyyəti necə olacaq? Budur sizin Azərbaycanın gələcəyinə baxışınız?"

İ. Cəfərov Əli Kərimliyə çoxlu sualları olduğunu, amma onlara cavab almağa ümid etmədiyini bildirib. Buna səbəb kimi isə Ə. Kərimlinin müstəqil mətbuata açıq olmaması ilə əsaslandırıb: "Sizə çoxlu suallarım var, lakin onlara cavab almağa ümid etmirəm. Mən sizi artıq müstəqil jurnalistlərin dostu hesab etmirəm. Baxın, ünvanınıza bircə tənqidi cümləyə görə tərəfdarlarınız necə təhqirlər yağdırırlar. Axı özünüzü lider adlandırırsınız, tərəfdarlarınızın bu biabırçılığını dayandırın".

Videoçarxın sonunda İsmayıl Cəlilov Əli Kərimlinin tərəfdarlarını çobana ehtiyacı olan sürü adlandırıb. Çox ehtimal ki, bu ifadədən sonra İ.Cəlilova hücumların sayı daha da artacaq və Əli Kərimlinin "demokratiyası" var qüvvəsi ilə üzə çıxacaq. Azərbaycan xalqı da bir daha şahid olacaq ki, belə kəslərlə heç bir gələcək ola bilməz.

# *Bugünkü Ermənistanın reallığı:* Artan borc, aclıq və səfalət

Sosial-iqtisadi sahədə yaşanan problemlər siyasi müstəvidə keçmiş hərbi xunta ilə Nikol Paşinyan arasında münasibətlərin gərginləşməsi ilə xarakterizə edilməkdədir. Belə görünür ki, ölkədə yaşanan sosial-iqtisadi problemlərdən keçmiş hakimiyyət Paşinyana qarşı istifadə etməyə çalışır. Bu məqsədlə etiraz aksiyaları da təşkil olunur. Məsələn, bu günlərdə Nikol Paşinyanın əleyhdarları Yerevanda və ölkənin daha 12 şəhərində etiraz aksiyaları keçiriblər. Paşinyanın əleyhdarları ölkədə hər sahədə vəziyyətin xeyli pisləşdiyini bildiriblər. Məsələn, qeyd olunur ki, 2019-cu ilin ilk rübündə Ermənistana yatırılan birbaşa xarici investisiya axını cəmi 7,6 milyon dollar təşkil edib və bu çox kiçik rəqəmdir və keçən ilin analoji dövrü ilə müqayisədə dəfələrlə az olub. Yaranmış vəziyyət azsaylı investorların da Ermənistandan üz çevirdiyini göstərir.

Eyni zamanda, ölkənin xarici borcu durmadan artır. Erməni iqtisadçılar ölkənin dövlət borcunun təhlükəli həddi keçdiyini elan ediblər. Ermənilərin "Joxovurd" nəşri də Ermənistanın dövlət borcunun artıq təhlükəli həddə çatdığını etiraf etmək məcburiyyətində qalıb. Qeyd edək ki, bu il mayın 31-nə olan məlumata görə, Ermənistanın dövlət borcu 6 milyard 924,5 milyon dollar təşkil edib. Bu barədə "Aysor" saytına danışan erməni iqtisadçı Vardan Bostançıyan bunları deyib: "ötən illər ərzində alınan kreditlər ölkənin heç bir sahəsindəki inkişafa təsir göstərməyib. İndi problem bu vəsaitlərin səmərəli istifadəsi üçün müvafiq mexanizmlərin əldə edilməsindən ibarətdir".

Hazırkı hökumət proqramının lirik xarakter daşıdığını bildirən erməni iqtisadçı bunun ölkə üçün heç bir əhəmiyyət kəsb etmədiyini bildirib: "Hazırda prosesə əməl etmək üçün heç bir göstərici, meyar yoxdur. Məhz buna görə də dövlət borcu baxımından biz hələ də qeyri-müəyyənlik içindəyik".

Ermənistan Dövlət Statistika Xidmətindən mətbuata verilən açıqlamada deyilir ki, ölkə vətəndaşlarının hər üç nəfərdən biri yoxsuldur. Buna görə kasıblar ölkə əhalisinin 29.4 faizini təşkil edir ki, onlardan 1.8 faizi çox yoxsul, 8 faizi olduqca yoxsuldur. Ölkə üzrə yoxsulların sayı isə təxminən 800 min nəfərdir. Yoxsullar nəzərdə tutulan 40.867 dramdan (99.7 dollar) az pul xərcləyirlər. Yoxsulluq əmsalı ayda 40 867 dramdan (85 dollar) az xərcləyən vətəndaşlara aiddir. Ayda 33 418 dramdan (69 dollar) az gəliri olanlar çox yoxsul, 23 313 dramdan (48 dollar) az gəliri olanlar səfalət içində yaşayanlar hesab edilir. Maraqlıdır ki, Ermənistan hələ də 2009-cu ilə - iqtisadi böhranından əvvəlki yoxsulluq həddinə enməyib.



Belə ki, 2008-ci ildə yoxsullar əhalinin 27.6 faiz təşkil edirdi. Bir başqa əhəmiyyətli göstərici də bölgələr arasında yoxsulluq həddinin qeyri-bərabər paylaşımıdır. İrəvanda yoxsulluq həddi 24.9 faizdirsə, digər bölgələrdə bu fərq 33.2 faizə qədər yüksəlir. Yoxsulluğun qarşısının alınması üçün 63.2 milyard dram (130.3 milyon dollar) lazımdır ki, bu da ÜDM-in 1.2 faizini təşkil edir və Ermənistan kimi bir dövlət üçün olduqca böyük rəqəmdir. Çox yoxsul olanların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün 1.4 milyard dram-ÜDM-in 0.03 faizi lazımdır. Ermənistanın 2014-2025-ci illər üçün Strateji inkişaf perspektivi proqramında hökumət yoxsulluq həddini 24 faizə endirməyi planlaşdırsa da, mövcud iqtisadi göstəricilər bunun mümkün olmayacağını deyir.

Ümumiyyətlə, Ermənistan iqtisadiyyatı 2009-cu ildə yaşanan dünya iqtisadi böhranının nəticələrini hələ də üzərində hiss edir. İqtisadi göstəricilərinin bir çoxu hələ də 2009-cu il göstəricilərinin altındadır. Ölkədə korrupsiyanın qarşısının almaq mümkün deyil, sərmayə yüksələn qrafik üzrə xaricə "qaçır." Hökumət bu problemlərin qarşısını almaqda acizdir və yeni problemlərlə qarşı-qarşıya qalma ehtimalı olduqca yüksəkdir.

✍ **Sevinc Azadi,**
***"İki sahil"***

# Şəffaflıq ARDNF-nin fəaliyyətinin əsas prinsiplərindən biridir



**Müasir dövrdə təbii sərvətlərlə, xüsusilə karbohidrogen ehtiyatları ilə zəngin olan, sivil, demokratik inkişaf yolunu tutmuş dövlətlərdə bu sərvətlərdən əldə edilən gəlirlər bugünkü və gələcək nəsillərin daha firavan həyat şəraitini təmin etmək üçün yaradılmış suveren fondlar tərəfindən idarə olunur. Mütəxəssislərin qənaətinə görə, suveren fondlar dövlət tərəfindən ölkə sərvətlərinin yığılması və səmərəli idarə edilməsi məqsədilə yaradılmış xüsusi məqsədli investisiya fondlarıdır.**

Vətənimiz Azərbaycan dünyanın təbii sərvətlərlə, xüsusilə neft və qaz ehtiyatları ilə zəngin ölkələri arasında öncül yerlərdən birini tutur. Mövcudluğunun böyük bir hissəsini müxtəlif imperiyaların, o cümlədən XIX əsrin əvvəllərindən XX yüzilliyin sonunadək tariximizin ən şanlı səhifələrindən biri olan 1918-1920-ci illər istisna edilməklə əvvəlcə çar, sonra isə bolşevik Rusiyasının boyunduruğu altında yaşamağa məhkum olunan Azərbaycan təbii sərvətlərinin sahibi olmadığına görə ötən əsrin 90-cı illərinin başlanğıcında dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra ciddi iqtisadi, siyasi və hərbi problemlərlə üz-üzə qalmışdı.

### Bugünkü və gələcək nəsillərin rifahı naminə inqilabi addım

Yalnız 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas etdi. Ulu Öndər dövlət idarəetmə sükanının arxasına keçdikdən dərhal sonra onun bilavasitə rəhbərliyi ilə ilkin təxirəsalınmaz vəzifə olaraq ölkənin təbii sərvətlərindən səmərəli istifadəni təmin etmək və iqtisadiyyatı canlandırmaq məqsədilə yeni milli neft strategiyasının hazırlanmasına başlandı. Müəllifi Ümummilli Lider olan bu strategiyanın əsas məqsədi ölkənin neft və qaz ehtiyatlarından Azərbaycan xalqının indiki və gələcək nəsillərinin rifahı naminə səmərəli istifadəsini təmin etmək idi. Azərbaycanın milli neft strategiyasının əsasını xarici sərmayənin və təcrübənin cəlb olunması, çoxvariantlı ixrac sisteminin yaradılması, ölkənin zəngin karbohidrogen ehtiyatlarının mənimsənilməsindən əldə olunan gəlirlərin effektiv, şəffaf idarə edilməsi və istifadə olunması təşkil edirdi. Məhz yeni milli neft strategiyasında nəzərdə tutulmuş əsas hədəflərə çatmaq məqsədilə ulu öndər Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli müvafiq Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) təsis olunması vaxtında və uzaqgörənliklə atılmış inqilabi addım idi.

Ümumiyyətlə, ARDNF-nin mövcud olduğu 20 illik zaman kəsiyində keçdiyi yola, ölkə iqtisadiyyatının inkişafındakı roluna qiymət vermək, bu qurumun özünəməxsus keyfiyyət və xüsusiyyətləri barədə daha aydın təsəvvürə malik olmaq üçün ilk növbədə onun dünyada mövcud olan bu tipli digər suveren fondlarla müqayisəli və oxşar cəhətlərinə nəzər salmaq zərurəti meydana çıxır. Vurğulayaq ki, ARDNF-nin əsas gəlir mənbəyi neft və qazın satışından daxil olan vəsaitlərdən formalaşdığı üçün maliyyələşmə mənbəyi xammal olan suveren fond qrupuna daxildir. Dünya miqyasında mövcud olan digər bir sıra suveren fondlar kimi, ARDNF də fəaliyyət göstərdiyi 20 il ərzində özünün dayanıqlı büdcəsini formalaşdırıb və müxtəlif investisiya alətlərini özündə birləşdirən investisiya portfelinə malikdir. Eyni zamanda, bu gün artıq ARDNF-i dünyada mövcud olan bu tipli suveren fondlarla müqayisə etdikdə onun çoxməqsədli suveren fond olduğu nəzərə çarpır.

## "Equinor"un uğursuz nəticəsi



Norveçin "Equinor" neft şirkətinin "Korpfjell" qaz kəşfinin yaxınlığında qazdığı kəşfiyyat quyusunun boş olduğu sübut olunub. Bu haqda Norveçin Neft Direktorantlığı məlumat yayıb.

Qeyd edək ki, ərazinin neftlə zəngin olduğu bildirilirdi. Bu, Norveçin Barens dənizindəki növbəti uğursuz cəhdi hesab olunur. Norveç bu kəşfin ölkənin neft sənayesində inkişafa səbəb olacağını gözləsə də, əksi ilə qarşılaşdı.

"İki sahil" "af.reuters.com" saytına istinadən xəbər verir ki, şirkət ilk dayaz quyusunu "Korpfjell" yatağında qazmışdı və əldə etdiyi qazın həcmi kommersiya xarakterli deyildi.

Qeyd edək ki, "Equinor" kəşfiyyat quyusunun boş çıxdığı ərazidə 30% payın sahibidir.

### Əgər Dövlət Neft Fondu yaradılmasaydı...

Tanınmış iqtisadçı-ekspert Vüqar Bayramov mövzu ilə bağlı qəzetimizə açıqlamasında 20 il bundan əvvəl ulu öndər Heydər Əliyevin böyük uzaqgörənliklə yaratdığı bu Fondun fəaliyyətini neftdən əldə olunan vəsaitlərin bir hesabda toplanması, cəmiyyətin üzvləri arasında ədalətlə bölünməsi və gələcək nəsillər üçün qorunub saxlanması baxımından yüksək qiymətləndirdiyini söylədi: "Eyni zamanda, Dövlət Neft Fondunun yaradılması Azərbaycanda neft pullarından istifadədə bu sahədə dünya miqyasında ən mütərəqqi təcrübə hesab edilən Norveç modelinin tətbiqi baxımından da son dərəcə əhəmiyyətli addım idi və bu gün biz onun bəhrələrini görürük. Bilirsiniz ki, bizdən xeyli əvvəl təsis olunmuş Norveç Neft Fondu yarandığı andan etibarən neft vəsaitlərinin sterilizasiyasına nail olmağı qarşısına əsas məqsəd qoyub. Təqdirəlayiq haldır ki, ARDNF da mövcud olduğu 20 il ərzində praktiki olaraq vəsaitlərin müəyyən hissəsinin sterilizasiyasını həyata keçirməyə müvəffəq olub".

Vüqar Bayramovun qənaətinə görə, ulu öndər Heydər Əliyev tərəfindən ARDNF-nin yaradılması ilə bağlı siyasi iradə nümayiş etdirilməsi neft satışından əldə olunan vəsaitlərin büdcədənkənar hesaba yığılması, xərcləmələrin optimallaşdırılması baxımından çox müdrik bir qərar idi: "Məhz bu müdrik qərar praktiki olaraq suveren fondların fəaliyyət prinsipinə uyğun olaraq Azərbaycanda neft gəlirlərinin xərclənməsinə məsul olan bir fondun formalaşmasına imkan verdi. Təbii ki, həmin ərəfədə ARDNF-nin yaradılması vəsaitlərin sterilizasiyası ilə yanaşı, eyni zamanda, neft pullarının büdcə xərcləri arasında itməməsi baxımından da vacib idi. Əgər Dövlət Neft Fondu yaradılmasaydı, o zaman vəsait birbaşa büdcəyə ödənilməli idi və təbii ki, pullar həmin maliyyə ilində xərclənib qurtarardı. ARDNF-nin yaradılması vəsaitlərin hər hansı bir maliyyə ilində xərclənməsinin qarşısının alınmasına, eyni zamanda, inklüziv olaraq bu yığımın bir qisminin gələcək nəsillərə saxlanmasına etibarlı təminat verdi".

### Suveren fondlar siyasətində Azərbaycan modeli

*Və yaxud ARDNF-nin vəsaitləri niyə ərimədi?*

Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban isə mövzunu qəzetimizə şərh edərkən Fondun fəaliyyətinin digər vacib məqamlarına toxundu. Bildirdi ki, ARDNF institusional cəhətdən yüksək səviyyədə formalaşmaqla beynəlxalq səviyyədə tanınan suveren fond statusunu uğurla daşıyır: "Azərbaycanın bu suveren fondu vəsaitlərin idarə edilməsi, fəaliyyətində şəffaflığın və hesabatlılığın təmin olunması baxımından digər dövlətlərlə öz təcrübəsini bölüşdürməyə qadir olan bir quruma çevrilib. Başqa ölkələrdəki analoji qurumlarla müqayisədə bizim Fondun fəaliyyətində diqqəti cəlb edən əsas məqam isə budur ki, ARDNF yaradılarkən bu suveren fondların təcrübəsinə istinad edilməklə yanaşı, yerli xüsusiyyətlər və mövcud ehtiyaclar da nəzərə alınıb, neft gəlirlərinin gələcək nəsillər üçün toplanması ilə bərabər, bugünkü nəsillərin problemlərinin həlli məqsədilə də istifadə edilməsini nəzərdə tutan bir model seçilib".

Həmsöhbətimiz bildirdi ki, qonşu Xəzər hövzəsi ölkələri ilə müqayisənin timsalında onların heç birində Azərbaycan modelində belə bir suveren Fond olmadığı halda, bu maliyyə institutu respublikamızın sonrakı inkişaf mərhələsində böyük rol oynadı: "Qonşu ölkələrdə neft-qaz resurslarının hasilatından gələn mənfəət ya birbaşa büdcəyə daxil olurdu, ya xüsusi yerli bankda, yaxud da Maliyyə Nazirliyinin hesablarında saxlanılırdı. Ancaq ayrıca bir suveren fond şəklində Azərbaycanda yaradılmış bu maliyyə institutu onun həm şəffaflığında, həm də bu vəsaitlərin daha rasional idarə edilməsində özünün dolğunluğunu təcrübədə təsdiqlədi. Lakin bunu bir sıra beynəlxalq maliyyə institutları uzun müddət təqdir etmirdilər. Onlar sübut etməyə çalışırdılar ki, neftdən gələn gəlirlərin neft-qaz layihələrinə yönəldilməsi məqsədəuyğun deyil və bu, lazımi effekti verməyəcək. Biz belə problemlə Bakı-Tbilisi-Ceyhan boru kəmərinin maliyyələşdirilməsi zamanı qarşılaşdıq. Ancaq bir beşillikdən sonra gördük ki, oraya yatırılan investisiyalar özünü tam doğrultdu və Azərbaycan bundan böyük xeyir götürdü. Sonrakı mərhələlərdə Azərbaycanın Dövlət Neft Fondundan istər enerji sahəsində infrastruktur layihələrinin, yəni "Şahdəniz" yatağında respublikamızın dövlət payının, istərsə də Cənub Qaz Dəhlizinin maliyyələşdirilməsi ölkəmizin milli maraqlarının, onun regiondakı nüfuzunun artması, sonrakı mərhələdə əldə olunacaq gəlirlər və ondan gələcək nəsillərinə çatacaq töhfə Azərbaycan hökumətinin 20 il əvvəl atdığı düzgün addımın nəticəsidir.

Məhz ARDNF-nin bir maliyyə institutu olaraq iki dəfə qlobal böhran dövründə - 2008-ci ilin sonunda və 2015-ci ildə yaşanan hadisələrdə, yəni neftin qiymətinin kəskin ucuzlaşması zamanı ölkəmizin daxilində iqtisadiyyatın stabilləşməsində müstəsna rolunu müşahidə etdik. Bu iki hadisə Azərbaycanın suveren fondunun iqtisadiyyatdakı təhlükəsizlik yastığı kimi böyük əhəmiyyət daşıdığının göstəricisidir. Artıq bu gün ARDNF-nin yaradılmasının 20-ci ilində onun aktivlərinin 40 milyard dolları keçməsi bir daha bunu sübut etdi. Halbuki 2015-ci ilin böhranı zamanı bir sıra ekspertlər iddia edirdilər ki, ARDNF-nin vəsaitləri 2020-ci ilə çatmayacaq, əriyib gedəcək. Onlar bu iddianı başqa ölkələrdə yaşanan analoji duruma əsaslanaraq irəli sürürdülər. İndi isə ARDNF-nin 40 milyarddan çox aktivlərinin olduğunu açıqlayanda xatırlatmaq lazım gəlir ki, yeni neft strategiyasının timsalında əsasını ulu öndər Heydər Əliyevin qoyduğu və bu gün cənab Prezident İlham Əliyevin zamanın çağırışlarına uyğun olaraq uğurla davam etdirdiyi uzaqgörən siyasət Azərbaycanın gələcəyi üçün çox vacib bir amilə çevrilib".

### Dünyanın 100 ən nüfuzlu investoru siyahısında ilk onluqda

İlham Şaban diqqətə çatdırdı ki, yaradıldığı gündən şəffaflıq ARDNF-nin fəaliyyətinin əsas prinsiplərindən birini təşkil edir: "Məhz bunun sayəsində ARDNF institusional cəhətdən və şəffaflığın təmin edilməsi baxımından müasir standartlara cavab verən dünya səviyyəli maliyyə təşkilatına çevrilib və Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasına xidmət edən bir çox nailiyyətlərə imza atıb. Təsadüfi deyil ki, ARDNF 2018-ci ildə dünyanın 100 ən nüfuzlu investoru siyahısında ilk onluqda yer alıb. Təbii ki, bu, çox yüksək göstəricidir. Bu, onu göstərir ki, sözügedən Fond son dərəcə düşünülmüş siyasət yeridir".

Müsahibimizin sözlərinə görə, bu gün Azərbaycanın suveren fondu dünya miqyasında stabil, qorunan, yüksək sığortalanma mənbəyinə malik qurum kimi tanınır: "Bunu ARDNF-nin 2014-cü il hadisələrindən alnıaçıq, üzüağ çıxması bir daha sübut edir. Məhz 2014-cü ildə neftin qiymətlərinin kəskin şəkildə aşağı düşməsindən sonra dünya iqtisadiyyatında meydana çıxan kataklizmlər fonunda, əsasən də iqtisadiyyatı neftdən asılı ölkələrdə yaranmış böhranlı vəziyyətlə bağlı suveren fondların boşalması müşahidə olundu. Hətta o zaman Azərbaycanla bağlı belə proqnozlar səsləndirilirdi ki, guya Dövlət Neft Fondu ziyana düşəcək. Ancaq nəticə belə oldu ki, ARDNF nəinki öz vəsaitlərini qoruyub saxladı, hətta aktivlərinin artırılmasına belə nail oldu. Hazırda ARDNF-nin aktivlərinin 40 milyard dolları ötüb keçməsi Fondun öz siyasətini düzgün qurmasının məntiqi nəticəsidir".

**Cavid Əkbərov,**
***"İki sahil"***

***Yazı ARDNF-nin yaradılmasının 20-ci ildönümü münasibətilə "Suveren fondların inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında rolu: Azərbaycan Respublikası Dövlət Neft Fondunun timsalında" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur.***

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Heydər Əliyev adına Neft Emalı Zavodu

**NÖC və A mallarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17019-19/A) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 19 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanına təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 (tələb olunan surətlərin sayı) surəti olmaqla 30 iyul 2019-cu il, Bakı vaxtı ilə saat 14:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 296 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.
Intermediary Bank:Commerzbank AG, Frankfurt am Main
S.W.I.F.T: COBADEFF
ACC # 400 88 660 3001
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic " Customer Service Department, SWIFT: İBAZAZ2X,
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account No: AZ08IBAZ38110019789306332120 EUR
Intermediary Bank:Deutsche Bank Trust Company Americas,New York
S.W.I.F.T: BKTRUS33
ACC # USD 04-164-504
Beneficiary Bank: The International Bank of Azerbaijan Republic Customer Service Department, SWIFT: İBAZAZ2X
Nizami str., 67, Phone: (+99450) 493-68-23
Beneficiary: State Oil Company of Azerbaijan Republic
TAX İD: 9900003871
Account\IBAN: AZ28IBAZ38110018409306332120 USD

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təminatlar:***

Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğində təminat tələb olunur.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifindən ayrıca təqdim edilməlidir. Əks təqdirdə satınalan təşkilat belə təklifi rədd etmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə əvvəlcədən sorğu verməlidir.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin 6 ay müddətinə yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1060, Bakı şəhəri, Nizami rayonu, O.Vəliyev küçəsi 1, 3-cü inzibati bina

**Əlaqələndirici şəxs:**
Mustafayeva İlahə, Maddi-texniki təchizat şöbəsinin mühəndisi
+994 12 521 00 00 Daxili: 17988
+994 12 521-23-51.
İlaha.mustafayeva@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 30 iyul 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 15:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**SOCAR-ın Satınalmalar Komitəsi**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Heydər Əliyev adına Neft Emalı Zavodu

**"Heydər Əliyev adına Hava limanına gedən avtomobil yolunun Bakı olimpiya stadionunun qarşısından keçən hissəsində SOCAR-ın müəssisələrinə məxsus boru kəmərlərinin keçdiyi yeraltı tuneldə drenaj sisteminin quraşdırılması" üzrə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (17006ƏT-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi(ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
* Müsabiqə təklifinin təminatı.
* Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 03.07.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təminatı***

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyasının etibarlılıq müddəti müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 20 bank günü olmalıdır.

Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası- 00 AZN (manat) olmaq şərtilə, 15.07.2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Əks halda iddiaçının müsabiqə təklifi olan zərf açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1surəti olmaqla 15.07.2019-cu il, Bakı vaxtı ilə saat 10.00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 250 (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 16:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 2019-cu il ərzində ərzində zavod tərəfindən verilmiş sifarişlər əsasında yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1060 (indeks nömrəsi);
Bakı şəhəri (yerləşdiyi şəhər);
Nizami rayonu (yerləşdiyi inzibati rayon və qəsəbə);
O.Vəliyev küç 1 (yerləşdiyi küçə və ya prospekt);
Zavodun HİK inzibati binası (yerləşdiyi bina, mərtəbə).
Əlaqələndirici şəxs:
Zaur Vəliyev (soyadı və adı).
Əsaslı tikinti şöbəsinin mühəndisi (struktur bölmənin və vəzifənin adı)
521-00-00 (17-819) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
521-23-03 (əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
Zaurs.veliyev@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)
Təklif və şikayətləriniz olduğu hallarda bu elektron ünvana müraciət edə bilərsiniz:
isa.dadashli@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 15.07.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:30-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə ediləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Heydər Əliyev adına Neft Emalı Zavodunun Satınalmalar qrupu**

## “Mançester Siti”də yeni müqavilə



İngiltərənin ”Mançester Siti” klubu futbolçusu Kayl Uolker ilə müqavilənin müddətini uzadıb.

Milli.Az xəbər verir ki, 29 yaşlı sağ cinah müdafiəçisi ilə müqavilənin müddəti daha 2 il artırılıb. Bu barədə klubun rəsmi saytı məlumat yayıb.

Yeni müqaviləyə əsasən, Uolker 2024-cü ilə qədər ”Mançester Siti”nin şərəfini qoruyacaq.

Geridə qalan mövsümdə Mançester təmsilçisi ilə 52 oyuna çıxan Kayl, bu görüşlərdə 2 qola da imza atıb. İngiltərə milli komandasının da şərəfini qoruyan Uolker, bu klubla 2 dəfə çempion olub, 1 dəfə Federasiya kubokunun, 2 dəfə Liqa kubokunun qalibi adını qazanıb. O, 2017-ci ildən ”Mançester Siti”də forma geyinir.

## Dünyanın ən kiçik ağıllı telefonu satışdadır



Kredit kartı böyüklüyündə olan dünyanın ən kiçik ağıllı telefonu satışa çıxıb.

Milli.Az xəbər verir ki, ”Palm” adlı telefon hazırda ABŞ-da satılır, qiyməti isə 350 dollardır.

Telefon Android əməliyyat sistemi ilə çalışır.

“Palm” haqda gələn ilk rəylər isə mənfidir. Belə ki, telefonun yalnız 4-5 saat enerji saxladığı bildirilir. Bundan başqa, telefonun ”Wi-Fi” qəbuledicisində də problem var.

# Yay qripindən necə qorunmalı?



***Yay qripi (Lejyoner xəstəliyi) nədir?***

Zəifləyən bədən müqaviməti, ümumi sahələrdə keçirdiyiniz vaxt, çimərliklər, dəniz, hovuz və yayın olmazsa olmazı kondisionerlər. Hamısı yay qripinin səbəblərindəndir.

***Yay qripinin simptomları hansılardır?***

İsti havadan xilas yolu kimi görünən kondisionerlər yay aylarında ən böyük xəstəlik səbəbi olaraq qəbul edilir. Bu nöqtədə istənməyən şikayətlərə səbəb olan yay qripi özünü ən çox qızdırma, halsızlıq və yorğunluq, öskürək, bəlğəm, dərin və xırıltılı nəfəsalma, əzələ ağrıları ilə göstərir.

***Yay qripi yoluxucudurmu?***

Bildiyimiz normal qrip ilə eyni simptomları göstərsə də, onun ortaya çıxmasının səbəbləri fərqlidir. Normal qripdə xəstəliyə səbəb olan orqanizmlər fərqlidir və bu mikroorqanizmlər asanlıqla insandan insana ötürülür. Yay qripi əsasən ventilyasiya və su qurğuları içərisində yaşayan mikroorqanizmlərin insanı xəstəliyə yoluxdurması ilə baş verir. İnsandan insana yoluxması riski olmayan yay qripi bu qurğulardan keçən su hissəciklərini tənəffüs etməklə ötürülür.

***Qış qripi dərmanları istifadə edilə bilərmi?***

Yay qripinə yoluxma səbəbləri fərqli olduğu üçün normal soyuqdəymə dərmanları müalicə üçün istifadə edilməməlidir. Bu, xəstəliyə təsir etməyəcək, əksinə digər sağlamlıq problemlərinə və yan təsirlərə səbəb ola bilər. Yay aylarında özünüzü yorğun hiss edirsinizsə, əzələ ağrısı, xırıltılı nəfəsalmadan əziyyət çəkirsinizsə, mütləq bir həkimə müraciət etməli və həkim tərəfindən təyin olunan dərmanlardan istifadə etməlisiniz.

Lejyoner xəstəliyinə səbəb olan bakteriyalar əsasən kondisionerlərin filtrlərində yerləşir. Hovuzlar və duş başlıqları da təhlükəli sahələrdir. Bütün bu cihazların gigiyenik olması çox vacibdir.

***Yay qripindən necə qoruna bilərik?***

* Kondisionerin temperaturu 22-23 dərəcə olmalıdır;

* Ani isti - soyuq hava dəyişikliklərinin qarşısını almaq lazımdır;

* Soyuq hava çıxışı sıxlığı ən aşağı rejimdə olmalıdır,

* Kondisioner yatarkən istifadə edilməməli, əgər istifadə olunarsa da şəxsin birbaşa üzərinə vurulmayacaq formada tənzimlənməlidir;

* Maye itkisinin artdığı isti havalarda ən az 2,5 litr su içilməlidir;

* Hovuz və ya dənizə girdikdən sonra mütləq duş qəbul olunmalıdır;

* Geyim seçimi incə və pambıq materialından olmalıdır;

* Tərli paltar dəyişdirilməlidir;

* Tərli olduqda kondisionerin soyuqluğuna birbaşa məruz qalmayın;

* Ağır və yağlı yeməklərin əvəzinə yüngül qidalar istehlak edilməlidir.

**Röya Rasimqızı,**
***“İki sahil”***

### ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın “Azneft” İB-nin rəhbərliyi və əmək kollektivi baş mühəndis-baş direktorun birinci müavini Rövşən Qarayeva, qardaşı
**İman Qarayevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın “Neftqazelmitədqiqatlayihə” İnstitutunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi direktorun geologiya üzrə müşaviri Əli Novruzova, qardaşı
**Faiq Novruzovun**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Vüqar Rəhimzadə SOCAR-ın “Azneft” İB-nin baş mühəndisi-baş direktorun birinci müavini Rövşən Qarayeva, qardaşı
**İman Qarayevin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

SOCAR-ın “Azneft” İB-nin Dalma Qurğularının Təmiri və Kirayəsi üzrə Eksperimental İstehsalat Müəssisəsinin baş mühəndisi Asəf Seyidov və əmək kollektivi SOCAR-ın “Azneft” İB-nin N.Nərimanov adına NQÇİ-nin rəisi Pərviz Əhmədova, nənəsi
**Maya xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“AzGerneft” MMC-nin baş direktoru Çingiz İsayev və əmək kollektivi SOCAR-ın Geofizika və Geologiya İdarəsinin əməyin mühafizəsi üzrə rəis müavini İsmayıl Hüseynova, anası
**Mahizər xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın “Qaz İxrac” İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın “Azneft” İB-nin baş mühəndisi-baş direktorun birinci müavini Rövşən Qarayeva, qardaşı
**İman Qarayevin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın “Azneft” İB-nin “Qaz Anbarlarının İstismarı İdarəsi”nin rəisi Xaliq Şəfiyev, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın “Azneft” İB-nin N.Nərimanov adına NQÇİ-nin rəisi Pərviz Əhmədova, nənəsi
**Maya xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Vüqar Rəhimzadə SOCAR-ın “Neftqazelmitədqiqatlayihə” İnstitutunun direktorunun geologiya üzrə müşaviri Əli Novruzova, qardaşı
**Faiq Novruzovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

SOCAR-ın “Azneft” İB-nin “Bibiheybətneft” NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın “Azneft” İB-nin baş mühəndisi-baş direktorun birinci müavini Rövşən Qarayeva, qardaşı
**İman Qarayevin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın “Azneft” İB-nin H.Z.Tağıyev adına NQÇİ-nin rəhbərliyi və əmək kollektivi SOCAR-ın “Azneft” İB-nin baş mühəndisi-baş direktorun birinci müavini Rövşən Qarayeva, qardaşı
**İman Qarayevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın Geofizika və Geologiya İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın “Azneft” İB-nin baş mühəndisi-baş direktorun birinci müavini Rövşən Qarayeva, qardaşı
**İman Qarayevin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın “Neftqazelmitədqiqatlayihə” İnstitutunun rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın “Azneft” İB-nin baş mühəndisi-baş direktorun birinci müavini Rövşən Qarayeva, qardaşı
**İman Qarayevin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın “Azneft” İB-nin Ə.C.Əmirov adına NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın “Azneft” İB-nin baş mühəndisi-baş direktorun birinci müavini Rövşən Qarayeva, qardaşı
**İman Qarayevin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın “Azneft” İB-nin “Qaz Anbarlarının İstismarı İdarəsi”nin rəisi Xaliq Şəfiyev, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın “Azneft” İB-nin baş mühəndisi-baş direktorun birinci müavini Rövşən Qarayeva, qardaşı
**İman Qarayevin**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın “Azneft” İB-nin Dalma Qurğularının Təmiri və Kirayəsi üzrə Eksperimental İstehsalat Müəssisəsinin baş mühəndisi Asəf Seyidov və əmək kollektivi SOCAR-ın “Azneft” İB-nin baş mühəndisi-baş direktorun birinci müavini Rövşən Qarayeva, qardaşı
**İman Qarayevin**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

TƏSİSÇİ: SOCAR

Baş redaktor:
Vüqar RƏHİMZADƏ
Baş redaktorun I müavini:
İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan:
AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet “İKİ SAHİL”in kompyuter mərkəzində yığılır və “AZƏRBAYCAN” nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 21.06.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8215
İndeks: 0151, Sifariş: 2031

Qəzetdə “AZƏRTAC”, “OLAYLAR”, “Azadİnform”, “TREND”, SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.